HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 15 (705) ■ 23 aprel 2014 www.vergiler.az Qiyməti: 40 qəp.


# Avropa Oyunlarına hazırlıqla bağlı genişmiqyaslı tədbirlər həyata keçirilir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri aprelin 17-də Bakıda tikilən Su İdmanı Sarayında inşaat işlərinin gedişi ilə tanış olmuşlar.*



2015-ci ildə Avropa ölkələri arasında tarixdə ilk dəfə Bakıda təşkil olunacaq Olimpiya Oyunlarına hazırlıq məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilir. Dövlətimizin başçısının tapşırığı ilə ən yüksək standartlara cavab verən müasir idman kompleksləri inşa edilir, mövcud idman obyektləri əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilir.

Prezident İlham Əliyev Azərbaycanda su idmanı növlərinin inkişaf etdirilməsi, yerli və beynəlxalq səviyyəli yarışların təşkili məqsədilə 2012-ci il avqustun 30-da Bakıda müasir standartlara cavab verən Su İdmanı Sarayının tikilməsi haqqında sərəncam imzalamışdır. Yeni idman arenasının layihələndirilməsini Koreya Respublikasının «Securo CO. LTD» şirkəti qısa müddətdə başa çatdırmış və inşaat işlərinə başlanılmışdır.

Su İdmanı Sarayında layihə əsasında görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verilmişdir. Bildirilmişdir ki, arena üçün 6 hektar torpaq sahəsi ayrılmışdır. Ümumi sahəsi 66 min kvadratmetr olan saray Beynəlxalq Üzgüçülük Federasiyasının tələblərinə tam cavab verir. Sarayda üç üzgüçülük hovuzu olacaqdır. Uzunluğu 50, eni 25 metr olacaq hovuz yarışlar üçün nəzərdə tutulmuşdur. İkinci hovuzda isə məşqlər keçiriləcəkdir. Hündürlükdən suyatullanma hovuzunun uzunluğu 25, eni 20 metrdir.

Bundan başqa, sarayda fitnes zalları, restoran, konfrans zalı, ofislər, digər işçi və köməkçi otaqlar fəaliyyət göstərəcəkdir.

Su İdmanı Sarayının ərazisində köməkçi bina və qurğular, 500 yerlik yerüstü avtomobil dayanacağı yaradılacaqdır. Sarayda keçiriləcək idman yarışlarını 6 min tamaşaçı izləyə biləcəkdir. Burada idmançıların məşq etmələri, respublika və beynəlxalq səviyyəli yarışların təşkili üçün hər cür şərait olacaqdır. Tikinti işlərini xarici və yerli şirkətlər icra edir.

Dövlətimizin başçısına və xanımına Avropa Oyunları Parkının layihəsi əsasında aparılacaq inşaat işləri barədə də məlumat verilmişdir. 18 hektar ərazidə inşa ediləcək Avropa Oyunları Parkı üç idman qurğusundan - su polosu, çimərlik voleybolu və futbolu, basketbol yarışları qurğularından ibarət olacaqdır. Bu qurğular arasında ikimərtəbəli funksional keçidin inşası da nəzərdə tutulur. Burada dörd hissədən ibarət funksional sahələrin yaradılması üçün də xüsusi ərazi ayrılmışdır. Avropa Oyunları Parkında iclas və konfrans zallarının, kafe və funksional otaqların inşası da nəzərdə tutulur. Parkda, həmçinin, mətbuat və yayım üçün çəkiliş qurğuları sahəsi, avtomobil dayanacağı və digər xidmət sahələri də yaradılacaqdır.

Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını vermişdir.

**rəsmi xronika**

## Müdafiə sahəsində əməkdaşlıq genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Qazaxıstan Respublikasının müdafiə naziri Serik Axmetovu qəbul etmişdir.

Serik Axmetov Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırmışdır. Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, Qazaxıstanın müdafiə nazirinin Azərbaycana səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olunmuşdur.

Prezident İlham Əliyev Prezident Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş etmişdir.

## Amerikalı konqresmenlərinin Azərbaycana səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da ABŞ Nümayəndələr Palatasının xarici əlaqələr komitəsinin sədri konqresmen Ed Roysu və onu müşayiət edən konqresmenləri qəbul etmişdir.

Konqresmen Ed Roys Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu bildirmiş və bundan məmnunluğunu ifadə etmişdir. Konqresmenlər ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən enerji, terrorizmə qarşı mübarizə və Əfqanıstanla bağlı, həmçinin Azərbaycanın Avropa strukturları ilə əməkdaşlığı də yüksək qiymətləndirmişlər.

Dövlətimizin başçısı öz növbəsində Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluğunu ifadə etmişdir. Prezident İlham Əliyev Azərbaycanın ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın genişləndirilməsinə böyük önəm verdiyini demişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyini diqqətə çatdırmışdır.

Görüşdə ABŞ nümayəndə heyətinin Azərbaycana bu səfərinin ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığı bildirilmiş, səfərin əlaqələrimizin yeni sahələrinin müəyyənləşdirilməsi baxımından önəmi qeyd edilmiş, ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

# Milli Gimnastika Arenası istifadəyə verilmişdir

*Son illər ölkəmizdə bütün sahələrdə olduğu kimi, müasir idman infrastrukturunun yaradılması istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirilir, yeni-yeni idman obyektləri tikilib istifadəyə verilir. Dünyanın qabaqcıl idman ölkələrindən biri olan Azərbaycan hazırda beynəlxalq Olimpiya hərəkatının fəal üzvlərindən biridir. İdmanın bütün sahələrinin inkişaf etdirilməsi Azərbaycan Prezidentinin daim diqqət mərkəzindədir.*



Paytaxt Bakıda və regionlarda inşa edilən, ən müasir avadanlıqla təchiz olunan Olimpiya İdman komplekslərinin sayı artıq 40-ı ötmüşdür. Mövcud idman komplekslərinin əsaslı şəkildə yenidən qurulması isə beynəlxalq yarışların keçirilməsi üçün ölkəmizin imkanlarını daha da artırır.

2015-ci ildə Bakıda keçiriləcək birinci Avropa Oyunlarına hazırlıq məqsədilə beynəlxalq standartlara uyğun mühüm layihələrin icra olunması ölkəmizdə müasir idman infrastrukturunun yaradılması işinə böyük töhfə verəcəkdir. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə Bakıda təntənəli qoyulan Milli Gimnastika Arenasının inşası idmanın bu növünün daha da inkişaf etdirilməsi işində mühüm rol oynayacaqdır.

Hazırda tərkibində idmanın dörd növünü - bədii gimnastika, kişi idman gimnastikası, akrobatika gimnastikası və tamblinqi birləşdirən Azərbaycan Gimnastika Federasiyasının son illər əldə etdiyi böyük uğurlar dünyanın idman ictimaiyyəti tərəfindən maraqla izlənilir. Bütün bu nailiyyətlər birinci xanım Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərliyi sayəsində mümkün olmuşdur.

2003-cü ildə Bakıda bədii gimnastika üzrə ilk dünya kuboku keçirilmişdir. Bakı 2005-ci ildə gimnastika üzrə dünya çempionatına ev sahibliyi etmişdir. 2007-2009-cu illərdə isə ölkəmizdə iki dəfə Avropa çempionatı keçirilmişdir. Bu işlərin nəticəsi olaraq Azərbaycan gimnastları da son illərdə böyük irəliləyişlərə nail olmuşlar. Dinara Gimatova 2003-cü ildə Afina Olimpiya Oyunlarına ilk milli lisenziyanı qazanmışdır. Aliyə Qarayeva isə 2007-ci ildə bədii gimnastika üzrə Avropa çempionu tituluna sahib çıxmışdır. Dünya çempionatında isə qızlarımız komanda hesabında üçüncü olmuşlar. Azərbaycan gimnastları növbəti illərdə ölkəmizi Olimpiya Oyunlarında layiqincə təmsil etmişlər.

İndi Azərbaycan 2015-ci ildə keçiriləcək ilk Avropa Oyunlarına hazırlaşır. İdman infrastrukturunun daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsi olan Milli Gimnastika Arenasının tikintisi də beynəlxalq əhəmiyyətli bu idman yarışının yüksək səviyyədə təşkili üçün geniş imkanlar açır.

Aprelin 16-da Bakıda Milli Gimnastika Arenasının açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etmişlər. Gənclər və idman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat vermiş, bildirmişdir ki, kompleksin fasadı xüsusi formada işlənmişdir. Burada maraqlı illüminasiya elementləri təqdim edən ekranlar quraşdırılmışdır. Əsasən gimnastika yarışları üçün nəzərdə tutulan arenanın əhəmiyyətini artıran mühüm amillərdən biri də buranın digər idman tədbirlərinin və yarışlarının da keçirilməsi üçün uyğunlaşdırılmasıdır.

Gimnastika zalı əsas yarış və köməkçi məşq hissələrindən ibarətdir. Yarışların miqyasından asılı olaraq, arenanın əsas hissəsində oturacaq yerlərinin sayını 5 mindən 10 minə qədər artırmaq mümkündür. Dünya standartlarına uyğun inşa olunan kompleksdə mətbuat mərkəzi, ilk tibbi yardım məntəqəsi, xoreoqrafiya, trenajor zalları, dopinq nəzarəti, inzibati otaqlar, mağazalar, kafelər və digər yardımçı sahələr yerləşir. Dünyanın ən yaxşı gimnastika komplekslərindən biri olacaq bu idman qurğusunda otel də yaradılmışdır.

Azərbaycan Gimnastika Federasiyası əhalinin bədən tərbiyəsi və sağlamlıq fəaliyyətinə geniş cəlb olunması, milli idman kadrlarının hazırlanması, yığma komandaların formalaşdırılması və hazırlığı, onların beynəlxalq yarışlara, toplanışlara göndərilməsi ilə də fəal şəkildə məşğul olur. Federasiya xarici ölkələrin idman təşkilatları və beynəlxalq idman qurumları ilə əlaqələrini inkişaf etdirir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva zalda yaradılan şəraitlə tanış olmuş və gimnastların məşq prosesinə baxmışlar. Burada da idmançılar üçün hər cür şərait yaradılmışdır. Avropa Gimnastika İttifaqının prezidenti də burada yaradılan şəraiti yüksək qiymətləndirmişdir. Zalda ən son gimnastika avadanlığı quraşdırılmışdır. Həmin avadanlıq Avropa Gimnastika İttifaqı, Azərbaycan Gimnastika Federasiyasının tövsiyələrinə əsasən yerləşdirilmişdir.

Milli Gimnastika Arenasında bu ilin iyununda bədii gimnastika üzrə Avropa çempionatı keçiriləcəkdir. Aprelin 19-da isə bədii gimnastika üzrə 21-ci Azərbaycan çempionatı təşkil olunacaqdır. Gimnastlar mütləq çoxnövçülükdə, o cümlədən ayrı-ayrı növlər üzrə medallar uğrunda yarışacaqlar. Turnirdə, həmçinin, Bakıda təlim-məşq toplanışlarında olan Macarıstan və Qazaxıstan gimnastlarının müsabiqədənkənar çıxışları nəzərdə tutulur. Çempionatın Milli Gimnastika Arenasında keçirilməsi və iyunun 13-15-də təşkil olunacaq bədii gimnastika üzrə Avropa çempionatı öncəsi test turniri xarakteri daşıması yarışlara olan marağı daha da artırmışdır. Bundan əlavə, 2015-ci ildə baş tutacaq birinci Avropa Oyunları çərçivəsində gimnastikanın 6 növü üzrə yarışların, 2019-cu ildə isə bədii gimnastika üzrə 2020-ci il Olimpiadasına lisenziya xarakterli dünya çempionatının burada keçirilməsi planlaşdırılır.

Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirmiş, tapşırıq və tövsiyələrini vermişdir.


2 Bəyannamələrin 94,5%-i elektron qaydada təqdim edilib

3 Vergi ödəyicilərinə xidmətin əsasını məlumatlandırma, maarifləndirmə, təbliğat və təlim təşkil edir

4 POS-terminallardan istifadə qaydaları ilə bağlı treninq

5 Mobil operatorlar nağdsız ödənişlər bazarında

# Bəyannamələrin 94,5%-i elektron qaydada təqdim edilib

*Vergi ödəyicilərinin vergi qanunvericiliyinə əməl etməsinin mühüm şərtlərindən biri də vergi bəyannamələrinin və hesabatların vergi orqanlarına vaxtında təqdim edilməsidir. Bu məqsədlə Vergilər Nazirliyi tərəfindən mütəmadi tədbirlər həyata keçirilir.*

İllik bəyannamələrin vaxtında təqdim edilməsi və hesablanmış vergilərin ödənilməsi məqsədilə xüsusi bildiriş və elan formaları hazırlanaraq yerli vergi orqanlarına göndərilir, kütləvi informasiya vasitələrində elanlar dərc olunur. Vergilər Nazirliyinin rəsmi internet səhifəsi və «195» Çağrı Mərkəzi vasitəsilə vergi ödəyicilərinin məlumatlandırılması işləri həyata keçirilir, vergi bəyannamələrinin vaxtında təqdim edilməsi məqsədilə vergi ödəyicilərinin telefon nömrələrinə mesajlar göndərilir.

2013-cü ilin yekunlarına görə, gəlir vergisi bəyannamələrinin 96,8%-i, mənfəət vergisi bəyannamələrinin 93,7%-i, əmlak vergisi bəyannamələrinin 91,2%-i, yol vergisi bəyannamələrinin 96,6%-i vaxtında təqdim edilmişdir. Ümumilikdə, hesabat dövrünün yekunları üzrə bəyannamələrin 93,9%-i vaxtında, vaxtında təqdim edilmiş bəyannamələrin isə 94,5%-i elektron qaydada təqdim edilmişdir.

# Vergi orqanlarına daxil olmuş şikayətlərin sayı azalıb

2014-cü ilin ilk rübü ərzində vergi orqanlarına 21824 müraciət daxil olmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3824 müraciət və ya 21,2% çoxdur. Müraciətlərdən 21546-sı (98,7%) ərizə, 254-ü (1,2%) şikayət, 24-ü (0,1%) təklif olmuşdur. Onlardan 39,2%-i müxtəlif arayışların alınması, 29,4%-i kameral vergi yoxlamaları, 6,8%-i vergi borcları, 8,7%-i səyyar vergi yoxlamaları, 0,2%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,1%-i korrupsiya hüquqpozmaları, 15,6%-i digər məsələlərlə bağlıdır.

Hesabat dövründə vergi orqanlarına daxil olan şikayətlərin sayı ötən ilin müvafiq dövrünə nisbətən 37 ədəd və ya 18,9% azalmışdır.

Müraciətlərin ümumi sayından 75,1%-i müsbət həll olunmuş, 14,9%-i barədə müvafiq izahatlar verilmiş, 3,3%-i əsassız sayılmış, 1,3%-i qismən həll olunmuş, 0,9%-i aidiyyəti üzrə göndərilmiş, 4,5%-i icradadır. Şikayətlərin ümumi sayından 28,3%-i əsassız sayılmış, 42,5%-i üzrə müvafiq izahatlar verilmiş, 9,5%-i müsbət həll olunmuş, 7,1%-i aidiyyəti üzrə göndərilmiş, 0,4%-i qismən həll olunmuş, 12,2%-i icradadır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından nazirliyin Aparatına 72 müraciət, o cümlədən 51 ərizə, 21 şikayət daxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu müraciətlərin ümumi sayı 27 ədəd və ya 27,3%, şikayətlərin sayı isə 41,6% azalmışdır.

# Vergi borcları azalır

*2014-cü ilin 1-ci rübü ərzində vergi orqanları tərəfindən vergi borclarının alınması sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində 1 aprel 2014-cü il tarixə vergi ödəyicilərinin dövlət büdcəsinə olan borc məbləği ilin əvvəli ilə müqayisədə 6,7%, ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 15% azalmışdır.*

Cari ilin 1-ci rübü ərzində ümumilikdə 49 min 956 vergi ödəyicisinin borclarının tamamilə ləğv edilməsinə nail olunmuş, 1 aprel 2014-cü il tarixə borclu vergi ödəyicilərinin sayının ümumi vergi ödəyicilərinin sayında xüsusi çəkisi 4,5% olmuşdur.

Vergi ödəyicilərinin dövlət büdcəsinə yaranmış borclarının ödənilməsinin təmin edilməsi məqsədilə vergi orqanları tərəfindən əmlakın siyahıya alınması barədə qərarların sayı 14 min 208 olmuş, bunların 68,9%-i borclar ləğv edildiyi üçün bağlanılmış, siyahıya alınmış əmlakların ixtisaslaşdırılmış açıq hərraclarda satılması məqsədilə məhkəmələrə verilmiş iddia ərizələri üzrə 194,2 min manat məbləğində 152 məhkəmə qətnaməsi qəbul olunmuşdur. Ümumilikdə, əmlakın siyahıya alınması barədə açılmış qərarlar üzrə 9 milyon manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Fiziki şəxslərin borclarının onların mülkiyyətində olan avtonəqliyyat vasitələrinə yönəldilməsi prosesi birinci rübdə də davam etdirilmişdir. Görülmüş tədbirlər nəticəsində bu cür nəqliyyat vasitələri müəyyən edilən 601 vergi ödəyicisinin 541,3 min manat məbləğində borcu dövlət büdcəsinə alınmış, 13 vergi ödəyicisinin nəqliyyat vasitələri siyahıya alınmış, 134 vergi ödəyicisi tərəfindən nəqliyyat vasitələri siyahıya alınmaya təqdim edilmədiyi üçün üzərlərinə həbs qoyulmaqla onların cərimə meydançalarında yerləşdirilməsi məqsədilə məhkəmələr tərəfindən müvafiq qərarlar qəbul edilmişdir.

Hüquqi şəxslərdə təsisçi (payçı) kimi çıxış edən borclu fiziki şəxslərin borclarının həmin hüquqi şəxslərdəki paylarından tutulması məqsədilə həyata keçirilmiş tədbirlər nəticəsində 370 fiziki şəxs üzrə 99,3 min manat məbləğində borcun dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

19 min 358 borclu vergi ödəyicisinin borclarının onların milli və ya xarici valyutada cari və digər hesablarından tutulması məqsədilə banklara və ya digər kredit təşkilatlarına 145 min 569 icra (ödəniş) sənədi olan sərəncam verilmişdir.

Vergi orqanları tərəfindən 247 borclu fiziki şəxsin ölkədən getmə hüququnun məhdudlaşdırılması, habelə kiçik həcmdə borcları olan 1052 vergi ödəyicisinin borclarının tələbin icraya yönəldilməsi qaydasında tutulması məqsədilə aidiyyəti üzrə icra məmurlarına müraciətlər edilmişdir.

Xeyli və ya külli miqdarda vergiləri dövlət büdcəsindən yayındırdığına görə ümumilikdə 163 vergi ödəyicisi üzrə 5,3 milyon manat borc məbləğini əhatə edən materiallar ibtidai istintaq aparılması məqsədilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir.

# Yeni strategiya elektron xidmətlərin tətbiqini sürətləndirəcək

*Açıq cəmiyyət quruculuğu yolunu seçmiş Azərbaycanda son illər ictimai həyatın bütün sahələrində elektron xidmətlərdən istifadənin genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir. «Elektron hökumət» çərçivəsində gerçəkləşdirilən tədbirlər dövlət idarəçiliyində müasir texnologiyaların geniş tətbiqinə, işin səmərəliliyinin, elektron xidmətlərin çeşidinin və keyfiyyətinin yüksəldilməsinə, vətəndaş məmnunluğunun təminatına xidmət edir.*

Ölkə başçısının «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli fərmanına əsasən, son üç ildə dövlət qurumlarının fəaliyyətində elektron xidmətlərin tətbiqi genişləndirilmiş, vətəndaş-məmur münasibətləri sivil məcrada qurulmuşdur. Respublikada «e-hökumət» quruculuğu istiqamətində ən mühüm addımlardan biri 2012-ci ildə «bir pəncərə» prinsipi ilə işləyən və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi vahid «Elektron hökumət» (www.e-gov.az) portalının istifadəyə verilməsi olmuşdur. Portal dövlət orqanlarının informasiya sistemləri arasında mübadiləyə, habelə elektron xidmətlərin vətəndaşlara «bir pəncərə» prinsipi əsasında təqdim edilməsinə imkan yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya»nın təsdiq edilməsi haqqında» sərəncamı elektron hökumət quruculuğu istiqamətində həyata keçirilmiş tədbirlərin daha da genişləndirilməsinə imkan yaradır. Strategiyanın başlıca məqsədi ölkədə informasiya cəmiyyətinin bərqərar olması, onun yaratdığı imkanlardan vətəndaşların, cəmiyyətin, dövlətin inkişafı üçün səmərəli istifadə edilməsi, ölkənin davamlı və dayanıqlı tərəqqisi, İKT-nin dövlət idarəçiliyində hərtərəfli tətbiqi, habelə sosial-iqtisadi və mədəni sahələrin inkişafına təkan verən iqtisadi sektor kimi inkişaf etdirilməsidir. Sənəddə əhaliyə təhsil, səhiyyə, sosial müdafiə və digər sosial sahələr üzrə göstərilən elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi; rəqabətədavamlı və ixracyönlü İKT sənayesinin qurulması; bilik iqtisadiyyatına keçidin təmin olunması; «Elektron hökumət»in genişləndirilməsi və digər məsələlər əksini tapmışdır.

Strategiyanın «Elektron hökumət»in inkişafı» adlanan 10-cu bəndi bilavasitə dövlət qurumlarının fəaliyyətində e-xidmətlərin genişləndirilməsi ilə bağlı məsələləri ehtiva edir. Sənədlə tanışlıq bir daha göstərir ki, dövlət orqanlarında müasir İKT-nin tətbiqi ilə idarəçiliyin metod və mexanizmlərinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması, hesabatlılığın və şəffaflığın təmin edilməsi, təqdim olunan elektron xidmətlərin keyfiyyətinin və istifadəsinin artırılması, vətəndaşların dövlət idarəçiliyində iştirakı üçün münasib şəraitin yaradılması hökumətin başlıca hədəflərindəndir. Bunun üçün «Elektron hökumət» infrastrukturunun mövcud tələbata uyğun inkişaf etdirilməsi, dövlət orqanları arasında səmərəli və təhlükəsiz informasiya mübadiləsinin təmini istiqamətində islahatlar davam etdiriləcəkdir.

«Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya» ilə nəzərdə tutulmuş mühüm tədbirlərdən biri də dövlət orqanlarında informasiya ehtiyatlarının müəyyənləşdirilmiş tələb və standartlara uyğun olaraq elektron formaya keçirilməsi, bu əsasda «Elektron hökumət» portalında «bir pəncərə» prinsipi ilə elektron xidmətlərin göstərilməsi olacaqdır. Bundan əlavə, sənəddə sosial-iqtisadi inkişafın prioritet sahələrində, o cümlədən kənd təsərrüfatı, sənaye, turizm və digər sahələrdə İKT və elektron hökumət həllərinin tətbiqinin genişləndirilməsi nəzərdə tutulmuşdur.

Dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi məqsədini önə çəkən strategiyada, həmçinin, «Elektron hökumət» portalının inkişaf etdirilməsi, o cümlədən «şəxsi kabinet»in və dövlət orqanlarına vahid müraciət imkanının yaradılması, «mobil hökumət» texnologiyalarının tətbiqi də vacib məsələlər sırasında yer almışdır.

Son illərdə e-xidmətlər, əsasən, nazirlik, komitə, agentliklərin fəaliyyətini əhatə etmişdir. Bu baxımdan, strategiya çərçivəsində mühüm məqsədlərdən biri də yerli icra hakimiyyətləri və özünüidarəetmə orqanlarında elektron xidmətlərin geniş təşkilidir. E-xidmətlərin əlçatanlığının artırılması üçün ictimai çıxış məntəqələri şəbəkəsinin genişləndirilməsi də mühüm yeniliklərdən biri kimi nəzərdən keçirilir. Sənəddə elektron və mobil imzanın, həmçinin elektron ödənişin tətbiqinin genişləndirilməsi, vətəndaşların «Elektron hökumət» üzrə məlumatlılığının artırılması, dövlət qulluqçularının İKT biliklərinin mənimsənilməsi məqsədilə keçirilən təlimlərin genişləndirilməsi diqqət mərkəzində saxlanılacaqdır.

Strategiya elektron təhsilin inkişafını da önə çəkir. İKT-nin təhsil prosesinin bütün mərhələlərinə inteqrasiyası ilə informasiya cəmiyyətinin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması, müəllimlərin kompüter biliklərinin artırılması; e-təhsil və distant təhsil sisteminin müasir tələblərə uyğun inkişaf etdirilməsi; fasiləsiz təhsil konsepsiyasının formalaşdırılması və inkişaf etdirilməsi bu istiqamətin əsas məqsədlərindəndir.

Sənəddə, xüsusilə də aztəminatlı sosial qrupların İKT-dən bəhrələnməsi üçün onlara müasir texnologiyalardan istifadə üzrə bilik və bacarıqların öyrədilməsi üsulları da əks olunmuşdur. Bu məqsədlə ucqar kənd məntəqələrində yaşayan və ya xüsusi tələbləri olan insanların kompüterdən, internet xidmətlərindən, «E-hökumət» portalından istifadə bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsinə diqqət artırılacaqdır.

**S.MUSTAFAYEV**

# «Azərbaycanın vergi jurnalı»nın növbəti nömrəsi çapdan çıxmışdır

*Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan «Azərbaycanın vergi jurnalı»nın növbəti nömrəsi çapdan çıxmışdır.*

Jurnalın «Rəsmi» rubrikasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş konfransda çıxış və nitqlərinin geniş xülasəsi dərc edilmişdir.

«Vergilər Nazirliyində» rubrikasında vergi xidməti orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmələri, həmçinin vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun III Vergi Forumunda iştirak etmək üçün Azərbaycana gəlmiş Türkiyə Gəlirlər Administrasiyasının rəhbəri Mehmet Kiliçi və Qazaxıstan Vergi Komitəsinin sədr müavini Arqın Kıpşakov ilə görüşləri barədə məlumatlar verilmişdir.




Bu il fevral ayının 6-7-də Bakıda «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda III Vergi Forumunun keçirilməsi haqqında oxuculara geniş hesabat təqdim olunmuşdur.

«Reytinq» rubrikasında oxucular «Doing Business 2014» hesabatında Azərbaycana dair göstəricilərin təhlili ilə tanış ola bilərlər. Məqalə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi tərəfindən hazırlanmışdır.

«Aktual» rubrikası jurnalın daimi müəlliflərindən olan prof. Əlican Babayevin «Milli maraqlara əsaslanan qlobal enerji strategiyası» məqaləsi ilə təmsil olunmuşdur.

Nömrədə bir neçə qanunvericilik sənədi - qanunlar, sərəncam və fərmanlar dərc edilmişdir.

Jurnalın elmi məqalələr blokunda iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən elmi araşdırmalar: i.e.f.d. C.Yusifovun «Qloballaşan iqtisadiyyatda innovativ inkişaf və vergitutma məsələləri», i.e.f.d. İ.Seyfullayevin «Sosial vergi güzəştlərinin nəticəliliyinin və səmərəliliyinin tədqiqi məsələləri», i.f.d. P.Rzayev və i.f.d., dos. Z.Rzayevin «İdarəetmə prosesində rəhbərlə təbeçilikdə olanların qarşılıqlı münasibətlərinin etik-psixoloji xüsusiyyətləri», doktorant Y.Yusifovun «Valyuta siyasəti, tənzimlənməsi və nəzarəti», doktorant B.Əhmədovun «Bank sistemində maliyyə stabilliyinin qiymətləndirilməsi: funksionallığı necə ölçmək olar?», doktorant K.Məmmədovun «Azərbaycanın bank sektorunda kredit risklərinin idarə olunması problemləri», doktorant T.Poluxovun «Müasir kontrollinq idarəetmə orqanının Azərbaycanın sənaye müəssisələrinin idarəetmə fəaliyyətinə inteqrasiyası», böyük elmi işçi Y.Bayramzadənin «Milli yanacaq-enerji kompleksinin müasir vəziyyəti və inkişaf meyilləri» məqalələri yerləşdirilmişdir.

«Baxış bucağı» rubrikasında oxucular jurnalın məsləhətçisi E.Bağırzadənin «Maliyyə amnistiyalarında uğuru necə təmin etmək olar?» məqaləsi ilə tanış olacaqlar.

«Dünya iqtisadiyyatı» rubrikasında isə Amerika Birləşmiş Ştatlarının iqtisadiyyatı, vergi sistemi haqqında oxuculara ətraflı məlumat verilmişdir.

Jurnalın «Yeni nəşrlər» rubrikasında Ə.Məmmədov və İ.Seyfullayevin «Vergi və investisiya mühiti», A.Musayev və Ə.Məmmədovun «Ünvanlı vergi xidmətləri», Ə.Məmmədovun «Vergiyə giriş», Ə.Məmmədovun «Təlimin əsasları», prof. Q.Abbasovun «Sıfırdan başlayan mühasibat (maliyyə) uçotu» kitabları haqqında yığcam materiallar təqdim edilmişdir.

Jurnal «Elm korifeyləri» rubrikasında oxuculara 2002-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüş alimlər D.Kaneman və V.Smitin həyatı və elmi yaradıcılıqları barədə məlumat verilmişdir.

Bu nömrədə jurnal «İqtisadi terminlər lüğəti»nin dərcini davam etdirmişdir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin yanvar-mart ayları ərzində Azərbaycanda ümumi daxili məhsul (ÜDM) istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə **2,5%** artaraq **13,2 mlrd. manat** təşkil etmişdir. Əlavə dəyərin **48,4%-i** sənaye sahələrində, **9,6%-i** tikinti kompleksində, **11,4%-i** ticarət və pullu xidmət sahələrində, **6,1%-i** nəqliyyatda, **1,8%-i** informasiya və rabitə müəssisələrində, **2,4%-i** aqrar bölmədə, **13,4%-i** digər sahələrdə yaradılmışdır.
- Keçən il qeyri-neft sektorunda **10%**, bu ilin birinci rübündə isə **8,8%** artım qeydə alınmışdır.
- Bu ilin birinci rübündə əhalinin banklardakı əmanətləri **20%-dən** çox artmışdır.
- Hazırda Azərbaycanın valyuta ehtiyatları **53 milyard dollar** təşkil edir.
- Azərbaycanda orta əməkhaqqı **430 manat** səviyyəsindədir.

# Vergi ödəyicilərinə xidmətin əsasını məlumatlandırma, maarifləndirmə, təbliğat və təlim təşkil edir

*Müsahibimiz vergilər nazirinin müşaviri Ələkbər Məmmədovdur*



**- Ələkbər müəllim, vergi ödəyiciləri arasında vergi mədəniyyətinin inkişaf etdirilməsi, formalaşdırılması istiqamətində Vergilər Nazirliyi tərəfindən həyata keçirilən tədbirlərin qısaca xülasəsini versək, hansı mənzərənin şahidi olarıq?**

- Ölkə başçısının Vergilər Nazirliyi qarşısında qoyduğu tələblərə uyğun olaraq, Azərbaycanda partnyorluq əlaqələrii, qarşılıqlı faydalara söykənən dövlət-biznes münasibətləri qurmağa üstünlük verilir. Vergi xidmətinin təkmilləşdirilməsi, modernləşdirilməsi və müasir dünya standartlarına tam uyğunlaşdırılması prosesi gedir və «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında vergi siyasəti də daxil olmaqla iqtisadi siyasət sahəsində kompleks tədbirlərin həyata keçirilməsi əks olunmuşdur. Konsepsiyada Vergilər Nazirliyinə aid tədbirlərin icrası məqsədilə «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası» qəbul edilmişdir. Strategiyanın əsas missiyalarından biri də əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, vergiödəmə vərdişlərinin cəmiyyətin normasına çevrilməsinə nail olunmasıdır. Vergi ödəyicilərinə göstərilən xidmətlər məlumatlandırma, maarifləndirmə, təbliğat və təlim istiqamətlərində aparılır.

Ərazi vergilər departamentləri və idarələrinin yerləşdiyi şəhərlər istisna olmaqla, digər şəhər və rayon mərkəzlərində vergilərin könüllü ödənilməsi sistemini inkişaf etdirmək, elektron xidmətlərdən istifadəni asanlaşdırmaq məqsədilə vergi ödəyicilərinə xidmət mərkəzləri yaradılmış və hazırda respublikada 40 belə mərkəz fəaliyyət göstərir. 2013-cü il ərzində vergi ödəyicilərinə xidmət mərkəzlərində 152638 ödəyici qəbul edilmiş və onlara 345466 sayda vergi xidməti göstərilmişdir. 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etmiş şəxslərin sayı 48,7% artmışdır.

Vergilər Nazirliyinin rəsmi internet səhifəsi vergi ödəyicilərinin informasiya ilə təmin olunmasında müstəsna rol oynayır. Vergilər Nazirliyinin internet səhifəsində məlumatların mütəmadi yenilənməsi və «İnformasiya əldə etmək haqqında» qanunda nəzərdə tutulan məlumatların yerləşdirilməsi təmin edilir. İnternet səhifəsinə 2013-cü ərzində 2.334.105 daxilolma qeydə alınmışdır.

2013-cü il ərzində vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə vergilərə aid 14 adda kiçik həcmli bukletlər, kitabçalar, jurnallar 146800 nüsxədə (133900 nüsxə Azərbaycan, 12900 nüsxə ingilis dilində) nəşr etdirilərək vergi ödəyicilərinə çatdırılmışdır. «Vergi ödəyicilərinə göstərilən xidmətlər - məlumatlandırma, maarifləndirmə və təbliğat işində sahibkarların ictimai təşkilatlarının və KİV-in rolunun artırılması» adlı layihə hazırlanmış, layihə çərçivəsində sahibkarların ictimai təşkilatları və KİV nümayəndələrinin iştirakı ilə tədbirlər keçirilmişdir.

«Vergi ödəyicilərinin vergi xidmətlərindən istifadə imkanlarının araşdırılması və vergi xidmətinin ünvanlılığının təmin olunması layihəsi» adlı başqa bir layihə çərçivəsində respublikanın müxtəlif bölgələrində vergi ödəyicilərinin maarifləndirilməsi, məlumatlandırılması və ünvanlı vergi xidmətinin göstərilməsi, ölkədə əlverişli vergi mühitinin formalaşdırılması mövzusunda «dəyirmi masa»lar keçirilmişdir. Tədbirlərdə aparılmış sosioloji araşdırmaların nəticələri vergi ödəyicilərinə, icra strukturları və qeyri-hökümət təşkilatları nümayəndələrinə təqdim edilmiş və onları maraqlandıran suallar cavablandırılmış, vergi sistemində tətbiq edilən yeniliklər barədə müvafiq izahatlar verilmiş, «vergi ödəyicilərinin vergi xidmətlərindən istifadə imkanlarının araşdırılması» üzrə hazırlanmış sorğu vərəqi əsasında Bakı şəhərində və regionlarda seçilmiş 1000 vergi ödəyicisi və 50 ekspert arasında sorğular aparılmışdır. Layihə çərçivəsində 2013-cü il ərzində vergi ödəyiciləri üçün 284 vərəqdən ibarət «Ünvanlı vergi xidmətləri» məlumat kitabı, təlimçilər üçün isə 8 modul əsasında 139 vərəqdən ibarət təlim materialları hazırlanaraq vergi ödəyicilərinə təqdim edilmişdir.

*Vergilər Nazirliyinin rəsmi internet səhifəsi vergi ödəyicilərinin informasiya ilə təmin olunmasında müstəsna rol oynayır*

Kənd və rayonların orta məktəb müəllimlərindən ibarət «Vergi dostları» şəbəkəsi vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işini gücləndirmək, «vergi» məfhumunu ölkənin bütün ərazisinə, xüsusilə ucqar kənd və rayonlara, hər bir ailəyə çatdırmaq və bununla da vətəndaşlarda vergi mədəniyyətini formalaşdırmaq, bu sahəyə ictimaiyyətin geniş təbəqələrini cəlb etmək məqsədilə yaradılmışdır. Hazırda respublikanın 49 rayonu üzrə ümumtəhsil məktəblərinin müəllimlərindən 1541 nəfər «Vergi dostları» şəbəkəsinə qoşulmuş, onlara üzvlük sertifikatı, «Vergi dostunun yaddaş kitabçası», kompüterlər və data-kartlar təqdim edilmişdir.

Təhsil müəssisələrinin şagird və tələbələrinin vergi savadının artırılması, onlarda vergi mədəniyyətinin formalaşdırılması və vergilərə aid dərs vəsaitlərinin tədrisinin səmərəli şəkildə həyata keçirilməsi məqsədilə respublikanın şəhər və rayonlarının orta ümumtəhsil məktəblərində vergilərə dair 54 metodiki kabinet, habelə Bakı şəhərində 2 peşə-ixtisas liseyində müasir avadanlıqlar, informasiya texnologiyaları və vergilərə aid əyani vəsaitlərlə təchiz olunmuş vergi tədris otağı istifadəyə verilmişdir.

Azərbaycan Dövlət İqtisad Universitetində Bakı və respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən ali məktəblərin tələbə və magistrantlarının iştirak etdiyi «Vergilər» mövzusunda 7 olimpiada keçirilmişdir. Vergilər Nazirliyinin rəsmi internet saytı vasitəsilə məktəblilər arasında onlayn qaydada vergilərlə bağlı ümumrespublika bilik yarışmaları keçirilir, 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Vergilər Nazirliyinin və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının Rəsm Qalereyasının təşkilatçılığı ilə on ildən çoxdur ki, «Vergilər uşaqların gözü ilə» adlı rəsm müsabiqəsi keçirilir.

**- Vergi təbliğatının günün tələbləri səviyyəsində təşkili üçün hansı addımlar atılır?**

- Müasir vergi siyasətinin əsas istiqamətlərindən biri məcburi vergi yığımlarından könüllü vergi ödəmələrinə keçidi təmin etməkdir. Vergi təbliğatının müasirləşdirilməsi üçün vergi ödəyicilərinin istənilən vaxt, istənilən yerdən, istənilən növ informasiyaya çıxışını təmin etmək günün ən vacib məsələlərindəndir. Vergilər Nazirliyi bu məqsədlə müxtəlif məlumat mənbələrindən: «195» Çağrı Mərkəzi, taxes.gov.az veb saytı, vergi ödəyicilərinə xidmət mərkəzləri, «Vergi dostları» şəbəkəsindən, sosial mediadan geniş istifadə edir. Geniş auditoriyaya malik Facebook, Twitter sosial şəbəkələrində, Youtube və video.az video hostinq səhifələrində Vergilər Nazirliyinin səhifələri yaradılmış və istifadəçilər arasında mütəmadi olaraq təbliğat işləri aparılır. 2013-cü ilin yekunlarına görə, gəlir vergisi bəyannamələrinin 96,8%-i, mənfəət vergisi bəyannamələrinin 93,7%-i, əmlak vergisi bəyannamələrinin 91,2%-i, yol vergisi bəyannamələrinin 96,6%-i vaxtında təqdim edilmişdir. Ümumilikdə isə hesabat dövrünün yekunları üzrə bəyannamələrin 93,9%-i vaxtında, 94,5%-i elektron qaydada təqdim edilmişdir.

2013-cü ildə 2012-ci il ilə müqayisədə vergi borclarının məbləği 35,7% azalaraq 16,8%-dən 10,8%-ə enmişdir.

**- Vergilər Nazirliyi vergi əməkdaşlarının peşəkarlığının artırılması istiqamətində hansı tədbirlər görür? Nazirliyin Tədris Mərkəzində bu məsələ ilə bağlı nə kimi yeniliklər və islahatlar həyata keçirilir?**

- Vergi əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması üçün nəzərdə tutulmuş vəzifələrin icrasının mənbəyi vergi orqanlarında insan resurslarının inkişafıdır. Bu məqsədlə təsdiq olunmuş konsepsiyanın əsas istiqamətlərini 5 qrupda birləşdirmək olar: təbliğat, təlim, qiymətləndirmə, həvəsləndirmə və insan resurslarının informasiya bazasının yaradılması.

Vergilər Nazirliyinin tədris konsepsiyasının əsas məqsədi vergi orqanları əməkdaşlarına vergilər sahəsində qəbul edilmiş qanunların öyrədilməsi, onlara texniki vasitələrlə iş vərdişlərinin mənimsədilməsi, nazirliyin strateji məqsədlərinin başa düşülməsi və qavranılması, xüsusi peşə mədəniyyətinin və davranış qaydalarının qəbul edilməsindən ibarətdir. Bu məqsədlə yaradılan Vergilər Nazirliyinin Tədris Mərkəzində işə yeni qəbul edilən stajçı əməkdaşlar, mütəxəssislər, orta, böyük və baş menecerlərdən ibarət təlim və tədris qruplarına ənənəvi, distant və kombinə edilmiş təlim formalarından istifadə olunmaqla ilkin hazırlıq, ixtisasartırma kursları və qısamüddətli təlimlər keçilir.

Ötən tədris ilində 23 qısamüddətli təlim, 3 ilkin hazırlıq kursu və 28 ixtisasartırma kursu aparılmış, vergi orqanı əməkdaşlarının təxminən 50%-i (1207 nəfər) tədris prosesinə cəlb olunmuşdur.

Tədrisin keyfiyyət göstəricilərində də artım müşahidə olunmaqdadır. Əksər inkişaf etmiş ölkələrdə, o cümlədən Avropadaxili Vergi Administrasiyaları Təşkilatına üzv ölkələrin vergi orqanlarında il ərzində bir vergi işçisi üçün 5 günlük təlim məqbul hədd kimi götürülür. Ötən il ölkəmizin hər vergi əməkdaşına düşən təlim günlərinin sayı 4,6 adam-gün oldu. Müqayisə üçün qeyd edək ki, həmin göstərici 2011-ci ildə 3,2 adam-gün, 2012-ci ildə isə 3,7 adam-gün olmuşdur.

Tədrisin təşkilində yeni təlim metodlarından istifadə edilməsi və biliklərin qiymətləndirilməsində yeni texnologiyaların tətbiqi keyfiyyətin yüksəlməsinə öz təsirini göstərmişdir. Təlim prosesinin daha yaradıcı və səmərəli olması üçün müasir təlim metodlarından olan işgüzar oyunlar, konkret halların təhlili, kollektiv müzakirələr, «Open space» və «World cafe» geniş istifadə edilir, təlimçilərin bu metodlardan istifadə etmək qabiliyyətlərinin inkişaf etdirilməsi üçün müvafiq tədbirlər görülür.

Vergilər Nazirliyində həyata keçirilən təlim proseslərində əməkdaşların peşəkar qabiliyyətlərinin yüksəldilməsi ilə yanaşı, işgüzar ünsiyyət etikası, nitq mədəniyyəti və etik davranış qaydalarının mənimsənilməsinə xüsusi diqqət yetirilir.

# IOTA İcraiyyə Şurasının iclası keçirilmişdir

*Aprelin əvvəlində İrlandiya Respublikasının paytaxtı Dublin şəhərində IOTA-nın İcraiyyə Şurasının 91-ci İclası keçirilmişdir.*

Intra-Eropean Organisation of Tax Administrations

İcraiyyə Şurasına üzv dövlətlərin (Serbiya, Avstriya, Azərbaycan Respublikası, Çexiya Respublikası, Finlandiya, İrlandiya, İtaliya, Niderland Krallığı və Birləşmiş Krallıq) vergi administrasiyalarının nümayəndələrinin və IOTA Katibliyinin iştirak etdikləri iclasda qurumun 2012-2017-ci illər üzrə strategiyasının icrası vəziyyəti haqqında müzakirələr aparılmış, İcraiyyə Şurası üzvləri «Vergi Administrasiyası İnformasiya Platforması Layihəsi»nin cari vəziyyəti ilə bağlı məlumatlandırılmış, eləcə də 2015-ci il üçün iş proqramının layihəsi müzakirə edilmişdir.

Aprelin 4-də isə İrlandiya Gəlirlər İdarəsinin Korporativ İşlər və Gömrük İdarəsinin nümayəndələri ilə görüş keçirilmişdir. Görüşün mövzularından biri də İrlandiyada vergi əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi sahəsində mövcud təcrübə barədə olmuşdur. Azərbaycan və İrlandiya hökumətləri arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya layihəsi üzrə danışıqların mövcud vəziyyəti də müzakirə edilmişdir.

Tədbirdə vergilər nazirinin müşaviri Ələkbər Məmmədov iştirak etmişdir.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi siyasəti və onun həyata keçirilməsi

Vergi siyasəti bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin əsas üsullarından biri olmaqla vergi sahəsində həyata keçirilən tədbirlər sistemini təşkil edir. Vergi siyasətinin əsas məqsəd və vəzifələri ölkənin mövcud sosial-iqtisadi vəziyyətindən və gələcək inkişaf istiqamətlərindən asılı olaraq müəyyən edilir. Vergi siyasətinin həyata keçirilməsi üsulları müxtəlif ölkələrdə bir-birindən fərqli olsa da, onun ümumi cəhəti iqtisadi aktivliyin, investisiyanın stimullaşdırılmasından, iqtisadi sistemin səmərəli strukturunun formalaşdırılmasından və büdcə gəlirlərinin artırılmasından ibarətdir. Ümumiyyətlə, vergi siyasətinin həyata keçirilməsi dedikdə, onun aidiyyəti dövlət hakimiyyəti orqanları tərəfindən qanunvericiliklə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində həyata keçirilən fəaliyyəti nəzərdə tutulur. Ölkədə mövcud olan dövlət idarəçiliyi sisteminin forma və metodlarından asılı olaraq, vergi siyasətinin həyata keçirilməsində müxtəlif dövlət orqanları iştirak edə bilərlər. Azərbaycan Respublikasında vergi siyasəti Azərbaycan Respublikasının Prezidenti, Milli Məclis, Nazirlər Kabineti, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən qanunvericiliklə onlara verilmiş səlahiyyətlər çərçivəsində həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti iqtisadiyyatın bütün sahələrinin, o cümlədən vergi sahəsinin inkişaf strategiyasını müəyyən edir, vergi qanunvericiliyinə və vergi inzibatçılığına dair normativ-hüquqi aktları təsdiqləyir və Vergilər Nazirliyinin strukturunu müəyyən edir. Azərbaycan Respublikasının Nazirlər Kabineti dövlət büdcəsi layihəsi çərçivəsində vergi siyasəti, vergi inzibatçılığı ilə bağlı təklifləri hazırlayıb baxılması üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir, vergi inzibatçılığını tənzimləyən normativ-hüquqi aktları hazırlayıb təsdiqləyir. Azərbaycan Respublikasının Milli Məclisində vergi qanunvericiliyinə və inzibatçılığına dair qanunvericilik aktları müzakirə edilərək qəbul olunur. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi maliyyə, büdcə, vergi sahəsində dövlət siyasətini işləyib hazırlayır və həyata keçirilməsini aidiyyəti dövlət orqanlarının və digər təşkilatların iştirakı ilə təmin edir, büdcə sistemi, vergi, dövlət xəzinədarlığı, dövlət maliyyə nəzarəti, audit, mühasibat uçotunun təşkili və aparılması sahəsində normativ-hüquqi tənzimlənməni həyata keçirir. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi idxal əməliyyatlarında tutulan ƏDV, aksiz və yol vergisinə nəzarəti həyata keçirməklə onların inzibatçılığının təkmilləşdirilməsinə dair təkliflər verirlər.

*Vergi siyasətinin həyata keçirilməsi dedikdə, onun aidiyyəti dövlət hakimiyyəti orqanları tərəfindən qanunvericiliklə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində həyata keçirilən fəaliyyəti nəzərdə tutulur*

Digər dövlət orqanları ilə müqayisədə, Vergilər Nazirliyi dövlət vergilərinin hesablanmasına və ödənilməsinə nəzarəti həyata keçirən vahid mərkəzi icra hakimiyyəti orqanı olmaqla, yerinə yetirdiyi funksiyalar vergi siyasətinin həyata keçirilməsində mühüm əhəmiyyət daşıyır.

Vergilər Nazirliyi haqqında Əsasnaməyə əsasən, nazirlik aşağıdakı əsas funksiyaları həyata keçirir:

- Azərbaycan Respublikasının vergi siyasətinin təkmilləşdirilməsi haqqında təkliflər hazırlayır;
- Azərbaycan Respublikasının vergi qanunvericiliyinə riayət olunmasını, dövlət vergilərinin və ona həvalə edilmiş digər daxilolmaların düzgün hesablanmasını, vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsi ilə bağlı dövlət vergi orqanlarının işini təşkil edir;
- Azərbaycan Respublikasının vergi qanunvericiliyinə riayət olunmasını təmin edən tədbirlər hazırlayır və həyata keçirir;
- vergi ödəyicilərinin, onların filiallarının, nümayəndəliklərinin və ya digər bölmələrinin (obyektlərinin), habelə nəzarət-kassa aparatlarının uçotunu aparır;
- vergi ödəyiciləri tərəfindən artıq ödənilmiş vergi məbləğlərinin əvəzləşdirilməsi və ya geri qaytarılması, habelə vergi ödəyicilərindən düzgün tutulmayan vergi məbləğlərinin, maliyyə sanksiyalarının, faizlərin və inzibati cərimələrin geri qaytarılması üçün qanunvericiliklə müəyyən edilmiş tədbirlər görür;
- tabeliyində olan vergi orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirir;
- xarici dövlətlərin vergi və digər səlahiyyətli orqanları ilə əməkdaşlıq edir və s.

Bununla belə, qeyd etmək lazımdır ki, ayrı-ayrı dövlət orqanlarının vergi siyasətinin həyata keçirilməsində hansı dərəcədə iştirak etmələrindən asılı olmayaraq, bu siyasətin əsas prinsipləri və məqsədi onların hər biri üçün ön planda dayanmalıdır. Deməli olar ki, əksər ölkələrdə vergi siyasəti əsas etibarilə vergi yükünün azaldılması, vergilərin sayının, dərəcələrinin aşağı salınması, onların hesablanması və ödənilməsi ilə bağlı prosedurların sadələşdirilməsi üzərində qurulur və müasir vergi siyasəti dövlətin, cəmiyyətin, ayrıca götürülmüş vergi ödəyicilərinin maraqlarına maksimum cavab verən və iqtisadiyyatın perspektiv inkişaf istiqamətlərini təmin edən vergi sisteminin formalaşdırılmasına yönəldilir. Azərbaycanda da vergi siyasəti qeyd olunan tələblərə cavab verməklə aşağıdakı perspektiv inkişaf istiqamətlərini nəzərdə tutur:

- passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçidin təmin edilməsi;
- qeyri-neft sektorunun, innovasiya yönümlü iqtisadiyyatın inkişafı üçün əlverişli mühitin formalaşdırılması;
- vergi inzibatçılığının və nəzarətinin daha da təkmilləşdirilməsi, o cümlədən e-auditin tətbiqi, nağdsız ödənişlərin stimullaşdırılması, e-kommersiyaya vergi nəzarətinin təşkili, vergi borclarının alınması mexanizminin təkmilləşdirilməsi, bəyannamələrin əvvəlcədən doldurulma sisteminin tətbiqi, transfert qiymətqoyma mexanizminin yaradılması, ümumi bəyannamə sisteminə keçidə hazırlıq və s.

Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## Hasilatın pay bölgüsü sazişi

***Hasilatın pay bölgüsü haqqında saziş üzrə fəaliyyət göstərən vergi ödəyicisi kimi vergi hesabatını vaxtında təqdim etməməyim hansı nəticələrə səbəb ola bilər?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 72.1-ci maddəsinə əsasən, vergi hesabatı vergi bəyannaməsindən ibarətdir. Həmin maddənin 2-ci bəndində qeyd edilir ki, Vergi Məcəlləsinə və ona müvafiq olaraq qəbul edilmiş qanunlara əsasən vergi hesabatını verməyə borclu olan vergi ödəyiciləri vergi hesabatını Məcəllədə göstərilən müddətlərdə müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi formada və yerdə vergi orqanına verməlidirlər. Qeyd olunan icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir.

Vergi Məcəlləsinin 53.8-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə başqa qaydalar nəzərdə tutulmadığı hallarda, bu sazişlər çərçivəsində fəaliyyət üzrə vergi hesabatını əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsinə görə vergi ödəyicisinin vəzifəli şəxsinin (şəxslərinin) həmin hərəkətə görə inzibati məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq qaydada həyata keçirilir.

İnzibati Xətalar Məcəlləsinin 247-ci maddəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər çərçivəsində fəaliyyət üzrə vergi hesabatlarının əsas olmadan müəyyən edilən müddətdə müvafiq icra hakimiyyəti orqanına təqdim edilməməsinə (həmin sazişlərdə başqa qaydalar nəzərdə tutulduğu hallar istisna olmaqla) görə inzibati tənbeh tədbiri nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən, qeyd olunan inzibati xətanın törədilməsinə görə fiziki şəxslər iyirmi beş manatdan otuz manatadək, vəzifəli şəxslər qırx manatdan altmış manatadək məbləğdə cərimə edilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 49.6-cı maddəsinə uyğun olaraq, vergi orqanı tərəfindən aşkar edilmiş vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicisi inzibati məsuliyyətə cəlb edilməli olduqda, vergi yoxlamasını keçirən vergi orqanının səlahiyyətli vəzifəli şəxsi inzibati hüquq pozuntusu haqqında ayrıca protokol tərtib edir. Bu hüquq pozuntuları haqqında işlərə baxılma və inzibati tənbeh tədbirlərinin həmin pozuntuların edilməsində günahkar olan vergi ödəyicisinin vəzifəli şəxslərinə və vergi ödəyicisi - fərdi sahibkara münasibətdə tətbiq edilməsi vergi orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq qaydada həyata keçirilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Aqrar sahədə islahatlar

## *Vergi güzəştləri 2020-ci ilə qədər kənd təsərrüfatı məhsulları istehsalının iki dəfə artmasına əsaslı zəmin yaradır*

*Azərbaycan dövləti 2020-ci ilə kimi ümumi daxili məhsulun (ÜDM) həcmini 2 dəfə artırmağı və iqtisadi artımın böyük hissəsinin qeyri-neft sektoru hesabına təmin olunmasını hədəf seçib. Qeyri-neft sektorunun strukturunda isə ən perspektivli sahələrdən biri kənd təsərrüfatı hesab olunur.*

Qarşıdakı illərdə aqrar sahədə istehsalı ən azı iki dəfə artırmağı planlaşdıran hökumət həm əkinə yararlı torpaqların həcmini çoxaltmağı, həm yeni fermer-aqrar təsərrüfatlarının yaradılmasını həyata keçirmək niyyətindədir. Prezident İlham Əliyevin bu günlərdə imzaladığı «Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında» fərmanda qeyd olunan başlıca məsələlərin həlli ilə bağlı konkret istiqamətlər müəyyənləşdirilib.



Xatırladaq ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında kənd təsərrüfatında aparılan islahatları dərinləşdirməyin vacibliyini diqqətə çatdırıb. Dövlət başçısı bildirib ki, gələcəkdə iqtisadiyyatda əsas yük qeyri-neft sektorunun payına düşməlidir və burada kənd təsərrüfatı xüsusi rol oynamalıdır. Eyni zamanda, ölkənin qeyri-neft ixracının strukturunda kənd təsərrüfatının payı yüksəldilməlidir.

Kənd Təsərrüfatı Nazirliyinin (KTN) şöbə müdiri Rizvan Mustafayevin sözlərinə görə, aqrar sənayenin yenidən qurulması, kənd təsərrüfatı məhsulları ixracının artırılması, aqrar sahədə istehsalçıların və istehlakçıların maraqlarının qorunması, ərzaq bazarının səmərəli fəaliyyətinin təmin edilməsi aqrar siyasətin müasir prinsiplərini təşkil edir. Fərmanda əsas prioritetlərdən biri kimi kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi, yeni aqrar layihələrin, o cümlədən aqroparkların yaradılması müəyyən edilib. Hazırda torpaq mülkiyyətçilərinə və sahibkarlara Sahibkarlığa Kömək Milli Fondu, «Aqrarkredit» təşkilatı vasitəsilə maliyyə yardımı göstərilir. Regionlarda mikromaliyyələşdirmə təşkilatları mövcuddur. Hökumət tərəfindən kənd təsərrüfatına həm dövlət xətti, həm də özəl qurumlar vasitəsilə müxtəlif formalarda maliyyə dəstəyi göstərilir. Kənd təsərrüfatı mülkiyyətçilərinə maliyyə dəstəyini artırmaq məqsədilə aqrar yönümlü bankın yaradılması nəzərdə tutulur. Artıq Mərkəzi Bank bu məsələyə müsbət rəy verib və ixtisaslaşdırılmış aqrar bankın yaradılması üçün iqtisadi mexanizmlər nəzərdən keçirilir. Təklif olunan əsas variant «Aqrarkredit» QSC bazasında müvafiq bankın yaradılmasıdır.

Aqrar sahədə istehsalın artımına mühüm təsir göstərən amillərdən biri də vergi güzəştləridir. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslərin 2014-cü il yanvarın 1-dən başlayaraq 5 il müddətinə mənfəət, əlavə dəyər, sadələşdirilmiş və əmlak vergisindən azad edilməsi bu sahənin perspektiv inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Vergi güzəştlərinin tətbiqi birbaşa qeyri-neft sektorunun aparıcı sahələrindən biri kimi aqrar sahənin inkişafına təkan vermək məqsədi güddüyündən, yaxın 6-7 ildə bu sektorda istehsalın iki dəfə artırılması gözlənilir.

Xatırladaq ki, ölkəmizdə vergi güzəştləri 2001-ci ildən tətbiq olunur və son 13 ildə aqrar sahədə məhsul istehsalı 3,5 dəfədən çox artıb. Kənd təsərrüfatı məhsulu istehsalı 1,3 milyard manatdan 5 milyard manata çatıb. Yəni tətbiq olunmuş güzəştlər illik dəyəri 280 milyon manatdan artıq məhsul istehsalının artmasında mühüm rol oynayıb.

Dövlət başçısı aqroparkların yaradılması ilə bağlı işlərin sürətləndirilməsi və bu yeni innovativ layihənin ölkəmizdə tətbiqi üçün Kənd Təsərrüfatı və İqtisadiyyat və Sənaye nazirliklərinə müvafiq təkliflərin hazırlanması barədə tapşırıqlar verib. Dövlət sənaye texnoparkları layihəsini hazırkı dövr üçün ən perspektivli model hesab etdiyindən texnoparkların digər forması olan aqroparkların yaradılmasına üstünlük verir.

R.Mustafayevin sözlərinə görə, aqroparkların yaradılması ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli aqrar və aqrar sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi daşıyır. KTN yeni layihənin tətbiqi məqsədilə qabaqcıl ölkələrin təcrübəsini öyrənəcək, xarici ölkələrin iri fermer təsərrüfatları ilə qarşılıqlı əməkdaşlıq qurulacaq, aqropark layihələrinə sərmayələrin cəlb olunması istiqamətində müxtəlif güzəştlər ediləcək.

Aqrar sahənin perspektiv inkişaf yollarından biri kəndli-fermer təsərrüfatlarının daha iri kənd təsərrüfatı müəssisələri formasında birləşmələrinin təmin olunmasıdır. Bu məqsədlə fermerlərə müxtəlif güzəştlərin verilməsi və iqtisadi cəhətdən stimullaşdırıcı tədbirlərin görülməsi nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

# POS-terminallardan istifadə qaydaları ilə bağlı treninq

Nazirlər Kabinetinin «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları» və «POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları»na uyğun olaraq təsərrüfat subyektlərində (obyektlərində) POS-terminallar quraşdırılacaq vergi ödəyicilərinə bildirişlər göndərilmiş, onlarla müvafiq məlumatlandırma işləri aparılmış və obyektlərdə POS-terminalın quraşdırılması təmin edilmişdir.

Lakin müşahidələr göstərir ki, görülən işlərin davamı olaraq Bakı şəhərindəki vergi ödəyicilərinin obyektlərində quraşdırılmış POS-terminallardan istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin aparılmasına ciddi zərurət var. Bu, nəzərə alınaraq Vergilər Nazirliyi tərəfindən POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr hazırlanmışdır. Vergi ödəyicilərinin məlumatlandırılması işinə Bakı Şəhər Vergilər Departamentində cəlb olunacaq işçilər müəyyənləşdirilmiş və onlara Vergilər Nazirliyi tərəfindən göndərilmiş tövsiyələrin və POS-terminalların işlədilməsi qaydalarının mənimsənilməsinə həsr edilmiş treninq keçirilmişdir.

Bakı Şəhər Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi, baş vergi xidməti müşaviri Elman Dadaşov iştirakçılara treninqin mövzusu və əhəmiyyəti, vergi ödəyicilərinin məlumatlandırılması ilə əlaqədar qarşıda duran vəzifələr barədə məlumat vermişdir. Tövsiyələrin müddəaları və ona əlavə edilən protokolun, məlumat formasının tərtib edilməsi qaydaları, görülən işlər barədə məlumatların təmin edilməsinin müddətləri şərh olunmuşdur.

«AtaBank» ASC-nin nümayəndələri Vüqar Əliyev və Elşən Kərimzadə təsərrüfat subyektlərində quraşdırılmış POS-terminal aparatlarını nümayiş etdirməklə onlardan istifadə qaydaları barədə əyani təlimat vermiş, iştirakçıların suallarını cavablandırmışlar.



# Əhalinin məşğulluq vəziyyəti diqqətdə saxlanılır

*Ölkədə məşğulluq sisteminin inkişafı, yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi dövlətin əsas hədəflərindəndir. İşsizlik probleminin həlli istiqamətində aparılan davamlı tədbirlər nəticəsində ötən il 110 min yeni iş yeri açılmışdır ki, bunun 80 mini daimi iş yerləridir.*

Əhalinin məşğulluq məsələlərinin diqqətdə saxlanılması məqsədilə ölkə başçısının sərəncamı ilə təsdiq edilən «Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)»nın 2006-2010-cu illəri əhatə edən birinci mərhələsinin icrası çərçivəsində işsizlərin, əhalinin həssas təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə nail olunmuş, əmək bazarının təkmilləşdirilməsi, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşması, rəqabət gücünün artırılması, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində müvafiq tədbirlər həyata keçirilmişdir. «Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı» isə əhalinin məşğulluğu sahəsində dövlət siyasətinin ardıcıllığını təmin edərək həmin strategiyanın ikinci mərhələsinin reallaşdırılmasına yönəldilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planında yer alan əmək yarmarkalarının, əmək birjalarının təşkili, eləcə də müxtəlif məşğulluq tədbirlərinin həyata keçirilməsi işsiz əhalinin sayının azaldılmasında mühüm rol oynayır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən bu tədbirlərlə məşğulluq xidməti orqanları tərəfindən vətəndaşlara münasib iş yerlərinin axtarılmasında, işəgötürənlərə lazımi kadrların seçilməsində kömək göstərilir, gənclərin peşə seçiminə yardım məqsədi ilə peşəyönümünün təşkili reallaşdırılır, işsiz statusunun verilməsi, işsizlik müavinətinin təyin olunması və ödənilməsi həyata keçirilir.

İş axtaran vətəndaşların işlə təminatında mühüm əhəmiyyət kəsb edən tədbirlər kimi əmək yarmarkalarının təşkil edilməsi işəgötürənlərlə işsiz və iş axtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyətinin təşkil edilməsinə, bununla da işəgötürənlərin qısa vaxt ərzində təcrübəli kadr seçiminə kömək edir. Bunun həm də işsiz və iş axtaran vətəndaşların mövcud vakant iş yerləri haqqında məlumat almalarına və layiqli işlə təmin olunmalarına faydası dəyir. Ötən il ərzində DMX orqanlarına 46667 nəfər vətəndaş müraciət edib və onlardan 29390 nəfəri münasib işlərlə təmin olunub. İl ərzində 4329 nəfər işsiz və iş axtaran vətəndaş əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı kurslarına, 1480 nəfər isə ödənişli işlərə cəlb edilib. Bakı, Sumqayıt, Gəncə və Mingəçevir şəhərlərindəki əmək birjaları tərəfindən 4101 nəfər müvəqqəti xarakterli iş yerlərinə göndərilib. Ötən il ərzində işsiz statusu verilənlərin sayı 2969, işsizlik müavinəti təyin olunanların sayı isə 3200 nəfər olub.

2014-cü ilk statistikasına görə isə bu ilin birinci rübündə 6191 nəfər vətəndaş münasib işlərlə təmin olunub, 268 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilib, Əmək birjaları 879 nəfəri müvəqqəti xarakterli işlərlə təmin edib, həmçinin bu müddətdə 651 nəfər iş axtaran vətəndaş əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı kurslarına cəlb olunub. Bu dövrdə 1422 nəfərə işsiz statusu verilib, 1603 nəfərə isə işsizlik müavinəti təyin olunub.

ƏƏSMN-dən verilən məlumata görə, iş axtaran və işsiz vətəndaşların münasib işlə təmin olunması məqsədilə Dövlət Məşğulluq Xidməti tərəfindən respublikanın bölgələrində əmək yarmarkalarının keçirilməsinə başlanılıb. Cari ilin ilk belə yarmarkası Şəmkir rayonunda keçirilib və 24 müəssisə tərəfindən 179 boş iş yeri təqdim olunub. Həmin yarmarkada 130 nəfərə boş iş yerlərinə göndəriş verilib. İl ərzində respublikanın bütün bölgələrində təşkil olunacaq əmək yarmarkalarında iş axtaran və işsiz vətəndaşlara boş iş yerləri təklif olunmaqla yanaşı, onların mövcud əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına və haqqı ödənilən ictimai işlərə cəlb olunması da təmin olunacaq.

Bununla yanaşı, ali məktəb tələbələrinin əmək bazarına inteqrasiyası məqsədi ilə «Karyerada ilk addım» devizi altında tədbirlər keçirilir. Burada məqsəd tələbələrə aldıqları ixtisaslar üzrə əmək bazarındakı tələbat haqqında məlumat vermək, iş adamlarına gələcək kadrların seçiminin aparılmasına kömək göstərmək, eləcə də məzun və tələbələrin ixtisasları üzrə boş iş yerlərinə cəlb olunmalarına şərait yaratmaqdır. Bu günlərdə «Karyerada ilk addım» devizi altında keçirilən aktiv məşğulluq tədbirlərində 216 nəfər tələbə və məzuna boş iş yerlərinə göndəriş verilib. Tədbir zamanı ixtisaslı kadrların seçiminin aparılması məqsədilə işəgötürənlər tərəfindən 515 nəfər tələbə və məzundan şəxsi məlumatlar qəbul olunub.

**AYTƏN**

# Mobil operatorlar nağdsız ödənişlər bazarında

## «Ödəniş xidmətləri haqqında» Qanunun qəbulu vergilərin mobil telefonlarla ödənilməsini təmin edəcək

Mərkəzi Bankın (MB) hazırladığı «Ödəniş xidmətləri haqqında» yeni qanun layihəsində nağdsız ödənişlərin həyata keçirilməsində mobil rabitə operatorlarının rolunun artırılması ilə bağlı müddəalara da yer verilib. Avropa və Amerika ölkələrinin inkişaf etmiş mobil ödəniş sistemini öyrənən MB bu təcrübəni ölkəmizdə tətbiq etməyi planlaşdırır. MB İdarə Heyətinin sədr müavini Alim Quliyev bildirib ki, rabitə operatorları ilə bu məsələ geniş müzakirə olunub və onların nağdsız ödənişlər bazarında hansı formada iştirakla bağlı təklifləri nəzərə alınıb. Operatorlar, demək olar ki, bütün elektron ödəmələrdə fəal iştirak etməkdə maraqlıdır.

MB rəsmisi qeyd edib ki, layihədə mobil operatorların əhali və iqtisadi subyektlərlə hesablaşmalarda elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə cəlb edilməsi, bu sahədə maarifləndirmə işlərinin artırılması nəzərdə tutulub. Həmçinin rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsində bu qurumlarla birgə fəaliyyətin inteqrasiyası məsələlərinə geniş yer verilib. Ümumiyyətlə, qanun layihəsində mobil rabitə operatorlarına digər ödəniş təşkilatları ilə eyni səviyyədə xidmətlər göstərmək üçün bütün səlahiyyətlərin verilməsi nəzərdə tutulub. Onlar bu fəaliyyət növü üçün MB-dən müvafiq lisenziya almalıdırlar.

MB-nin Ödəniş Sistemləri və Hesablaşmalar Departamentinin direktoru Kəmalə Qurbanovanın sözlərinə görə, müasir vəziyyət elektron ödəniş xidmətlərindən istifadənin genişləndirilməsini zəruri edir və e-ödəniş sisteminin institusional bazasının gücləndirilməsi mobil operatorların da fəal iştirakçı kimi bu sahəyə cəlb olunmasına əlverişli imkan yaradır. Hazırda elektron ödənişlərin həcmi ümumi daxili məhsulun (ÜDM) iki mislini ötüb və bu, heç də aşağı göstərici deyil. Son iki ildə nağdsız və elektron hesablaşmaların genişləndirilməsi mexanizminin stimullaşdırılması ilə əlaqədar atılan addımlar bu sahədə dinamikanın artmasına səbəb olub. Mobil operatorların nağdsız ödənişlər sektoruna cəlb olunması bazarda rəqabəti artıracaq. Xüsusilə də kiçik məbləğdə tranzaksiyaların bu sahə üzrə həyata keçirilməsi istifadəçilərdə maraq oyadacaq.

Azərbaycanda internet ödənişlər bazarında əsas aparıcı şirkətlərdən olan «Golden Pay»ın rəhbəri Fərid İsmayılzadənin sözlərinə görə, dünyada e-ödənişlərin ən rahat və asan, sərfəli formalarından biri mobil texnologiyalardan istifadədir. Bu texnologiyaların Azərbaycanda tətbiqi üçün lazımi infrastruktur mövcuddur. Bunun üçün respublikamızın mobil rabitə bazarında köhnə texnologiyalardan uzaqlaşıb mobil texnologiyalara keçməyin zamanıdır. Mobil texnologiyaların tətbiqi dairəsi o qədər genişlənib ki, elektron ticarətin mobil versiyasına, yəni mobil ticarətə keçmək günün tələbi kimi meydana çıxıb: «Hazırda Azərbaycanda smartfon şəbəkəsi 12%-dən çoxdur, mobil telefonların sayı isə əhalinin sayından artıqdır. Hər yüz nəfərə təxminən 130-140 telefon düşür. Bu isə mobil telekom sisteminin e-ticarətə inteqrasiyası üçün əlverişli fürsət deməkdir. İnternet ödəmə şirkətlərinin də bu prosesə marağı böyükdür və mobil operatorlarla əməkdaşlıq onlar üçün yeni imkanlar açır. Məsələ bundadır ki, artıq insanlarda internet vasitəsilə mobil ödənişlər vərdişi formalaşıb və bu, çox mühüm faktordur. Mobil operatorlar bu işə başlayarkən elektron ödəmələrlə bağlı müxtəlif stimullaşdırıcı aksiyalar təşkil etsə, bu bazarın böyük bir qisminə nəzarət edə bilərlər».

«Golden Pay» şirkəti mobil operatorların təkliflərini nəzərə alaraq e-ticarət, onlayn ödəmə ilə bağlı yenilikləri tətbiq etməyi, yeni layihələr həyata keçirməyi planlaşdırır. Artıq mobil ticarətlə bağlı rabitə operatorları ilə razılaşma əldə olunub, kommersiya bankları, «MilliKart» Prossesinq Mərkəzi ilə də texniki məsələlər həll edilib. Şirkət metro və avtobuslarda onlayn ödəmə sisteminə keçidi nəzərdə tutan layihə üzərində də işləri yekunlaşdırıb. Bu layihə də mobil operatorlar vasitəsilə reallaşacaq: mobil telefon vasitəsilə metroda və avtobusda gedişhaqqını ödəmək mümkün olacaq.

Ödənişlərin internet və mobil telefonlarla həyata keçirilməsi Vergilər Nazirliyinin də marağında olduğu məsələlərdəndir. Nazirlik mobil rabitə operatorları ilə bu istiqamətdə danışıqlar aparıb və razılıq əldə edib. Elektron ödəmələr, xüsusilə də vergi və rüsumların mobil telefonlarla həyata keçirilməsi vergi ödəyicilərinin rahatlığı, vaxt itkisinin qarşısının alınması və şəffaflığın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.




**Elbrus CƏFƏRLİ**

# Əsaslı kapital qoyuluşları qeyri-neft sektorunun inkişafını sürətləndirir

*İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin davamlı olaraq artırılması istiqamətində düşünülmüş strategiya həyata keçirən Azərbaycan hökuməti 2014-cü ilin ilk rübündə karbohidrogen resurslarından asılılığın azaldılması, investisiya cəlbediciliyinin, makroiqtisadi sabitliyin qorunub saxlanılması, qlobal infrastruktur layihələrinin reallaşdırılması və digər mühüm istiqamətlərdə müsbət göstəricilər əldə etmişdir.*




**Ötən il Azərbaycanda qeyri-neft sektoru 10 faiz, bu ilin birinci rübündə isə 8,8 faiz artmışdır. Bu artım son illərdə ölkədə aparılan islahatların nəticəsidir**

Nazirlər Kabinetinin 2014-cü ilin ilk rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclasında səslənən fikirlər dünya ölkələrində iqtisadi böhranın səngimədiyi bir dövrdə Azərbaycanın rəqabət qabiliyyətinin artdığını və investisiya reytinqinin yüksəldiyini göstərir. Hesabat dövründə iqtisadiyyatın bütün funksional sahələri üzrə optimal nəticələr əldə olunmuş, regionların sosial-iqtisadi inkişafına, biznes mühitinin liberallaşdırılmasına istiqamətlənmiş dövlət siyasətinin davam etdirilməsi istər ümumi daxili məhsulun, istərsə də strateji valyuta ehtiyatlarının artımına imkan yaratmışdır.

Bu mərhələnin diqqətçəkən göstəricilərindən biri də qeyri-neft sektorunun dinamik artım tempinin saxlanılmasıdır: Dövlət Neft Fondundan transfertlər istisna olmaqla, dövlət büdcəsinə daxilolmaların 36,7%-i neft-qaz sektorunun, 63,3%-i isə qeyri-neft-qaz sektorunun payına düşmüşdür. Büdcə gəlirlərinin formalaşmasında neft sektorunun payının azalması qeyri-neft sektorunun inkişaf etdirilməsi və şaxələndirilməsi sahəsində həyata keçirilən genişmiqyaslı fəaliyyətin nəticəsidir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasındakı nitqində bununla bağlı demişdir: «Son illər bizim üçün iqtisadi inkişafı göstərən əsas göstərici qeyri-neft sektorunun parametrləridir. Keçən ildə olduğu kimi, bu il də biz bu sahədə sürətli inkişafa nail ola bilmişik. Keçən il qeyri-neft sektorumuz 10 faiz, bu ilin birinci rübündə isə 8,8 faiz artmışdır. Əlbəttə ki, bu artım son illərdə Azərbaycanda aparılan islahatların nəticəsidir».

Qeyri-neft sektorunda müşahidə edilən yüksək artım tempi hökumətin ortamüddətli perspektivdə qarşıya qoyduğu strateji hədəflərə əsaslanaraq, ilk növbədə, makroiqtisadi sabitlik amili ilə şərtlənir. İlin birinci rübündə Azərbaycanda ümumi daxili məhsulun 2,5% artması, strateji valyuta ehtiyatlarının 53 milyard dollara yüksəlməsi respublikamızın həm daxili, həm də xarici sərmayələr üçün açıqlığını təmin etmişdir. Çevik investisiya siyasəti nəticəsində əsas kapitala bütün maliyyə mənbələrindən 3 milyard 125,9 milyon manat və 2013-cü ilin birinci rübü ilə müqayisədə 7% çox vəsaitin yönəldilməsi bunu bir daha təsdiqləyir. Daxili investisiyaların yüksək artım tempi respublikanın sosialyönümlü siyasətinin mahiyyətindən, cəmiyyət həyatının bütün sahələrində modernləşməyə nail olmaq, iqtisadi potensialın səmərəli reallaşdırılmasına etibarlı zəmin formalaşdırmaq məqsədindən irəli gəlir. Cəmiyyətin gələcəkdə əldə edəcəyi böyük faydalar nəzərə alınaraq iri həcmli maliyyə hesabına başa gələn infrastruktur layihələri də gerçəkləşdirilir. Köhnə infrastrukturla müasir Azərbaycanın artan ehtiyaclarını təmin etməyin, iqtisadiyyatın davamlı və sabit inkişafına nail olmağın, sahibkarlığı inkişaf etdirməyin, əhalinin həyat keyfiyyətini yüksəltməyin qeyri-mümkünlüyü yaxşı məlumdur. Dövlət vəsaitləri hesabına kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, əhalinin fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz, içməli su ilə təmin olunması, yolların bərpası və yenidən çəkilməsi, zəruri infrastruktur yaradılması və s. işlər həyata keçirilir.

Ölkə iqtisadiyyatına ümumi investisiya qoyuluşunda daxili investisiyaların xüsusi çəkisinin ildən-ilə artması ölkənin öz milli iqtisadiyyatını daxili resurslar hesabına maliyyələşdirmək imkanında olduğunu, həmçinin xarici amillərdən asılılığının azaldığını təsdiq edir. Qeyri-dövlət bölməsinin iqtisadi sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində əsas kapitala investisiya qoyuluşlarında da özəl sektorun da rolu artır. İqtisadiyyat və Sənaye Nazirliyi 2014-cü ildə ölkədə əsas kapitala investisiya qoyuluşlarında qeyri-dövlət bölməsinin payının 47,5% olacağını, bunun da 70,4%-ni daxili investisiyaların təşkil edəcəyini proqnozlaşdırır və investisiyaların 68,5%-nin qeyri-neft sektorunun inkişafına yönəldilməsi gözlənilir.

Dövlət əsaslı kapital qoyuluşlarının həcminin dinamik artması «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» və «2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə təkan verməklə yanaşı, ölkədə investisiya mühitinin yaxşılaşmasına və sahibkarlığın inkişafı üçün sağlam mühitin formalaşmasına da imkan yaratmışdır. 2014-cü ilin birinci rübündə regionlarda 100-ə yaxın sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi fəaliyyətə başlamış, 500-dək yeni müəssisənin tikintisi davam etdirilmişdir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 1014 sahibkara 44,7 milyon manat güzəştli kredit verilmiş, həmin kreditlər hesabına 2400-dən çox yeni iş yeri yaradılmışdır.

Nazirlər Kabinetinin iclasında qeyd olunduğu kimi, regionların sosial-iqtisadi inkişafına dair əvvəlki dövlət proqramlarının icra olunduğu son 10 il ərzində regionlarda qeydiyyata alınan sahibkarlıq subyektlərinin sayı 7,2 dəfə, vergi daxilolmaları 12,7 dəfədən çox artmışdır. Respublikanın şəhər və rayonları üzrə vergi gəlirlərinin artımı Sumqayıt, Şirvan, Mingəçevir şəhərlərinə, eləcə də Abşeron və İmişli rayonlarına öz xərclərini tamamilə yerli gəlirlər hesabına təmin etməyə imkan yaratmışdır.

Kiçik və orta sahibkarlıq subyektlərinin kreditlərə çıxış imkanlarının genişləndirilməsi, iş adamlarının fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, fiziki və hüquqi şəxslərin qeydiyyatı sisteminin sadələşdirilməsi və digər tədbirlər də qeyri-neft sektorunda məhsul istehsalının həcminin artımına səbəb olur. 2014-cü ilin yanvar-mart aylarında Azərbaycanda müəssisə və təşkilatların sayı artmaqda davam etmiş, qeydiyyata alınmış 2388 hüquqi şəxsin 38-i dövlət mülkiyyətə, 2181-i xüsusi mülkiyyətə aid olmuşdur. Bunların da 130-u tam xarici investisiyalı, 39-u isə birgə müəssisələrdir. Yeni müəssisələrin 47,2%-i Bakıda, 11,5%-i Aran, 11,4%-i Lənkəran, 8,1%-i Quba-Xaçmaz iqtisadi rayonlarında, qalanları isə digər bölgələrdə qeydiyyatdan keçmişlər.

Bu ilin yanvar-mart aylarında 19865 fiziki şəxsin qeydiyyatdan keçməsi ölkədə əlverişli biznes mühitinin mövcudluğunu təsdiqləməklə yanaşı, qeyri-neft sektorunun artım tempinin qarşıdakı rüblərdə də saxlanılacağına dəlalət edir.

**Samir MUSTAFAYEV**

# Pensiya sistemi elektronlaşdırılır

Ölkəmizdə bu ilin yanvar ayından tətbiq olunan «Sığortaolunanın onlayn uçota alınması» elektron xidməti sığortaedənlərlə Dövlət Sosial Müdafiə Fondu (DSMF) orqanları arasında münasibətlərin sadələşdirilməsi və sığorta-pensiya sistemində şəffaflığın daha da artırılmasını təmin edir. DSMF-nin Fərdi uçotun təşkili şöbəsinin müdiri Nigar Pənahova bildirmişdir ki, xidmət vasitəsilə vətəndaşların fərdi uçot sistemində uçota alınaraq sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi prosesi elektron qaydada həyata keçirilir. Qeyd edilmişdir ki, 2014-cü ilin yanvar ayından indiyədək real vaxt rejimində onlayn şəkildə təqdim olunmuş elektron müraciət əsasında 10.200 fərdi şəxsi hesab açılaraq sosial sığorta şəhadətnaməsi rəsmiləşdirilmişdir.

Elektron xidmətdən istifadə üçün sığortaedən həm DSMF-nin saytı, həm də «Elektron hökumət» portalı vasitəsi ilə «Sığortaolunanın onlayn uçota alınması» elektron xidmətini seçir və müvafiq xanaları dolduraraq sorğu edir. Elektron formada göndərilmiş ərizə DSMF orqanı tərəfindən qəbul edilir və bu barədə sığortaedənə elektron təsdiqetmə bildirişi göndərilir. Sığortaedən tərəfindən elektron formada göndərilmiş ərizəyə DSMF tərəfindən baxılır, yoxlanıldıqdan sonra sığortaolunan üçün şəxsi hesab açılır və sosial sığorta nömrəsi əks olunan dövlət sosial sığorta şəhadətnaməsi 1 ay ərzində rəsmiləşdirilir. Eyni zamanda, əgər vətəndaş sığortaolunan kimi fərdi uçot sistemində qeydiyyatdadırsa, bu zaman imtina haqqında informasiya əks olunmaqla sığortaolunanın nə zaman və hansı sığortaedən tərəfindən uçota alınması ilə bağlı xüsusi pəncərə açılır.



«Sığortaolunanın onlayn uçota alınması» elektron xidməti interaktivdir, xidmətdən istifadə ödənişsizdir. Xidmətin istifadəçiləri hüquqi və fiziki şəxslərdir.

**AYTƏN**

# ƏDV fırıldaqçılığına qarşı mübarizə

Macarıstanın paytaxtı Budapeşt şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən keçirilmiş tədbirdə 29 ölkədən 51 nümayəndə, eləcə də IOTA Katibliyi iştirak etmişdir. Forum zamanı Avropa Birliyinə üzv ölkələrdə və digər dövlətlərdə ƏDV-dən yayınma halları, ƏDV fırıldaqçılarının vergidən yayınma sxemi və bunlarla mübarizədə geniş tətbiq olunan qabaqlayıcı tədbirlər və digər tənzimləyici metodlar barədə ətraflı müzakirələr aparılmışdır. Bunlarla yanaşı, təşkilata üzv ölkələrdə vergi orqanları tərəfindən son 12 ayda aşkar olunmuş vergi ödəyicilərinin ƏDV-dən yayınma metodları, ƏDV fırıldaqçılarının qeydiyyatının məhdudlaşdırılması və bunulla da onların apardığı çoxsaylı biznes əməliyyatlarının qarşısının alınması və effektiv nəzarət mexanizminin tətbiqi kimi məsələlər araşdırılmışdır. Bu sahədə yeni inkişaf trendləri kimi Avropa Birliyinə üzv ölkələrdə gömrük orqanlarının «VIES» məlumat bazasından vergi orqanlarının da faydalanması və lazımi texniki imkanların yaradılması, risklərin fəaliyyət sahələri üzrə analizinin aparılması, riskli vergi ödəyiciləri ilə əməliyyat aparan müəssisələrə xəbərdarlıq edilməsi təcrübəsi iştirakçılar tərəfindən nəzərdən keçirilmişdir.

Forumda Azərbaycandan Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentinin İri vergi ödəyiciləri üzrə bəyannamələr şöbəsinin əməkdaşı Ülvi Tağıyev iştirak etmişdir.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Kommersiya təşkilatları tərəfindən maliyyə hesabatlarının təqdim edilməsi istiqamətləri

**Əvvəli ötən sayımızda**

***Sual 5. Qaydaların 3.5-ci maddəsində nəzərdə tutulan kommersiya təşkilatlarından başqa digər təşkilatlar Maliyyə Nazirliyinə maliyyə hesabatlarını təqdim etməlidirmi?***

Qaydalarda bu nəzərdə tutulmamışdır. Qeyd edək ki, «məlumatlar» dedikdə «maliyyə hesabatları» başa düşülməməlidir. Lakin Qaydaların 3.4-cü maddəsinə əsasən maliyyə hesabatlarının təqdim edilməsi barədə məlumatlar təsisçilər tərəfindən Maliyyə Nazirliyinə təqdim edildikdən sonra maliyyə hesabatlarının hazırlanması və təsisçilərə təqdim edilməsi ilə əlaqədar hər hansı qanuni pozuntulara yol verilməsi ilə bağlı faktlar aşkar olduğu halda, Maliyyə Nazirliyi bu barədə qanunvericiliyə uyğun olaraq inzibati tədbirlər görə bilər.

***Sual 6. Maliyyə hesabatları barədə məlumatların Maliyyə Nazirliyinə təqdim olunmasının əhəmiyyəti nədir?***

Aparılan müşahidələr onu deməyə əsas verir ki, Maliyyə Nazirliyinə məlumat verməli olan yuxarı təşkilat rəhbərləri və ya təsisçilər sözügedən məlumatların verilməsini, həmçinin Maliyyə Nazirliyinə maliyyə hesabatlarını təqdim etməli olan kommersiya təşkilatları qanunla müəyyənləşdirilən hesabatların təqdim edilməsini lazımi qaydada təmin etmirlər. Bu məlumatların verilməsinin və hesabatların təqdim edilməsinin yuxarı təşkilat və ya təsisçilər üçün böyük əhəmiyyəti vardır. Belə ki, Maliyyə Nazirliyi mühasidat uçotu sahəsində nəzarətedici və tənzimləyici dövlət orqanı olaraq məlumatları və maliyyə hesabatlarını araşdırır, maliyyə hesabatlarında buraxılan əhəmiyyətli səhvlərin düzəldilməsində təsərrüfat subyektlərinə yardımçı olur, həmçinin təsisçilərin və ya yuxarı təşkilatın yaxşı məlumatlanmış maliyyə hesabat göstəriciləri ilə təmin olunmasına xidmət edir. Məcburi auditin obyekti olan, lakin auditdən keçməyən kommersiya təşkilatları da az deyildir. Bu cür kommersiya təşkilatının təsisçisi və yuxarı təşkilatı rəhbərlik tərəfindən ona təqdim olunan maliyyə hesabatına inanmaq məcburiyyətində qalır, lakin maliyyə hesabatlarına ən azından Maliyyə Nazirliyi tərəfindən baxılması və hesabat göstəricilərinin qiymətləndirilməsi təsisçilərin, əsasən də az paya malik payçıların (səhmdarların) tam maraqlarına xidmət etmiş olar.

***Sual 7. Maliyyə hesabatlarını qanunvericiliyə müvafiq olaraq hazırlamayan və təqdim etməyən kommersiya təşkilatları hansı məsuliyyəti daşıyırlar?***

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 247-1-ci (mühasibat uçotu üzrə qanunvericiliyin pozulması) maddəsinə əsasən mühasibat uçotu subyekti tərəfindən maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının və sığorta nəzarəti orqanına təqdim edilməli olan digər hesabat və məlumatların qanunvericiliyə müvafiq qaydada hazırlanması, təqdim olunması, dərc edilməsi, o cümlədən hesabatlarda və qanunvericiliyə əsasən tələb olunan digər məlumat formalarında informasiya və göstəricilərin tam və ya düzgün əks etdirilməməsinə, həmçinin uçot sənədlərinin saxlanılması ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydaların pozulmasına görə vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək miqdarda, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək cərimə edilirlər.




# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**4-cü MƏRHƏLƏ** *(davamı)*

Adətən köhnə (ənənəvi) mühasibat qaydaları ilə işləyən mühasiblər «balans» dedikdə, haqlı olaraq müəssisənin aktiv, kapital və öhdəlik hesablarının son qalıqlarını əks etdirən cədvəl sistemini başa düşürlər. Lakin qəzetin əvvəlki sayında təqdim olunan sınaq balansında göründüyü kimi, bu üç elementdən başqa gəlir və xərc hesablarının qalıqları da əks etdirilib. Analoji yanaşsaq belə aydın olur ki, köhnə hesablar planına uyğun 26, 43, 44, 46, 48, 83 №-li və xərc və gəlirlərə aid digər analoji hesabların qalıqları bağlanmayaraq, balansda əks etdirilir. Lakin hamıya məlumdur ki, köhnə qaydalara görə balans hazırlanarkən 26, 43, 44, 46, 48, 83 №-li hesabların qalıqları balans hazırlananadək bağlanmaqla 20, 46, 80 №-li hesablara silinirdi. Əgər gəlir və xərc hesabları bağlanırsa, deməli, qalan hesablar yalnız aktiv, öhdəlik və kapital hesablarından ibarət olacaqdır. Laikn bu üç elementin göstəriciləri əsasında hazırlanan yeganə və son balans vasitəsilə mənfəət və zərərlər haqqında (maliyyə nəticələri haqqında) hesabatı tərtib etmək mümkün olmur. Bu hesabatı tərtib etmək üçün balansdan başqa digər mənbələrin göstəricilərini axtarmaq lazım gəlir. Köhnə qaydalar üzrə mənfəət və zərərlər haqqında hesabatı tərtib etmək üçün ayrıca olaraq bütün gəlir və xərc hesablarını, həmçinin satış hesablarını araşdırmaq və məlumatları əldə etmək lazım gəlir. Beynəlxalq təcrübədə isə gəlir və xərc hesabları bağlanmadan ilkin etapda balansda saxlanılır ki, başqa kitab və ya jurnallara daxil olmadan yalnız həmin balansa (sonuncu olmayan balansa) nəzər yetirərək bütün maliyyə hesabatlarını rahat tərtib etmək mümkün olsun. Beynəlxalq təcrübədə ilk olaraq cari dövrün son tarixinə bitən müddət üzrə sınaq balansı hazırlanır, hansı ki, həmin balansda işlək olan aktiv, kapital, öhdəlik, gəlir və xərc hesablarının hamısının qalıqları əks etdirilir. Sonra ilkin hazırlanan həmin sınaq balansı əsasında bütün maliyyə hesabatları tərtib olunur. Daha sonra isə ilk olaraq hazırlanan sınaq balansındakı gəlir və xərc hesabları bağlanaraq yaranan maliyyə nəticəsinin məbləği kapital hesablarına (əsasən cari bölüşdürülməmiş mənfəət hesabına) ötürülməklə cari hesabat dövründən sonra gələn hesabat dövrünün əvvəlinə keçən sonuncu sınaq balansı hazırlanır. Həmin sonuncu balans növbəti hesabat dövrünə keçən və yalnız aktiv, kapital və öhdəlik hesablarının göstəricilərindən ibarət balans olacaqdır.

Sınaq balansının tərkibinə aydınlıq gətirmək üçün bizim misal üzrə tərtib etdiyimiz sınaq balansında əks etdirilən hesabları aktiv, kapital, öhdəlik, gəlir və xərc hesabları üzrə bölüşdürək:

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ ŞINAQ BALANSI «31» yanvar 2014-cü il tarixinə**

| Hesabın №-si | Hesabın adı | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|---|
| I. | AKTİV HESABLAR | | |
| 111 | Torpaq, tikili və avadanlıqlar - dəyər | 95000 | |
| 112 | Torpaq, tikili və avadanlıqlar - amortizasiya | (22500) | |
| 205 | Mallar | 145650 | |
| 211 | Alıcıların və sifarişçilərin qısamüddətli debitor borcları | 103400 | |
| 221 | Kassa | 49850 | |
| 222 | Bank – milli valyuta ilə cari hesab | 38930 | |
| | **Aktiv hesablar üzrə cəmi məbləğ** | **410330** | |
| II. | KAPİTAL HESABLARI | | |
| 301 | Nominal (nizamnamə) kapital | | 70000 |
| | **Kapital hesabları üzrə cəmi məbləğ** | | **70000** |
| III. | ÖHDƏLİK HESABLARI | | |
| 501 | Qısamüddətli bank kreditləri | | 80000 |
| 522 | Sosial sığorta və təminatlar üzrə öhdəliklər | | 3100 |
| 531 | Malsatan və podratçılara qısamüddətli kreditor borcları | | 207370 |
| 533 | Əməyin ödənişi üzrə işçi heyətinə qısam. kred. borcları | | 3140 |
| | **Öhdəlik hesabları üzrə cəmi məbləğ** | | **293610** |
| IV. | GƏLİR HESABLARI | | |
| 601 | Satış | | 383400 |
| | **Gəlir hesabları üzrə cəmi məbləğ** | | **383400** |
| V. | XƏRC HESABLARI | | |
| 701 | Satışın maya dəyəri | | (273350) |
| 711 | Kommersiya xərcləri | | (35560) |
| 721 | İnzibati xərclər | | (15110) |
| 751 | Maliyyə xərcləri | | (12660) |
| | **Xərc hesabları üzrə cəmi məbləğ** | | **(336680)** |
| | Yekun balans məbləğ | 410330 | 410330 |

*Bu cədvəli qısaca təsvir edək:*

1. Aktivlər - 410330 manat
2. Kapital - 70000 manat
3. Öhdəliklər - 293610 manat
4. Gəlirlər - 383400 manat
5. Xərclər - (330680) manat

*Maliyyə bərabərliyinin doğruluğunu yoxlayaq:*

Aktivlər = Kapital + Öhdəliklər + Gəlirlər - Xərclər

410330 = 70000 + 293610 + 383400 - 330680

**Davamı növbəti sayımızda**

vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Sahibkar Anar Məlikov paytaxt ərazilərinin birində yerləşən mağazada hədiyyə və suvenir mallarının satışı ilə məşğul olub. Sonradan o, mağazaya müxtəlif qida malları, o cümlədən şüşə qablarda yerləşdirilmiş mürəbbələr və meyvələr, yeyinti məhsulları da yerləşdirirərək ticarətini genişləndirib. Bununla da gündəlik qazancı artıb və mağazadakı alış-verişin çox olması səbəbindən işə əlavə satıcı götürüb. Vergi orqanı ilə bağlanmış «Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi haqqında» 24.10.2008-ci il tarixli ərizə və müqaviləni özü imzalayıb, vergi orqanı tərəfindən verilmiş elektron PİN kod və şifrədən şəxsən özü istifadə edib.

Mağazada mühasib olmadığından bütün mühasibat sənədlərini, o cümlədən vergi bəyannamələrini özü tərtib edən sahibkar müəyyən dövrdə intizamlı ödəyici kimi tanınıb. Təxminən bir il keçdikdən sonra «qara mühasibatlığa» əl atıb və vergi bəyannamələrini saxtalaşdırmağa başlayıb.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşlarının apardıqları araşdırmalar zamanı onun törətdiyi qanunsuzluqlar üzə çıxıb. Müəyyən edilib ki, A.Məlikov vergi orqanına təqdim olunan sadələşdirilmiş vergi bəyannamələrinə saxta məlumatlar daxil edib. O, gəlir və xərcləri barədə bilə-bilə təhrif olunmuş məlumatlar daxil etməklə 2208,46 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayındırıb.

Fiziki şəxs Anar Məlikova qarşı Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə cinayət işi açılıb. Sahibkar ona qarşı elan edilmiş ittihamla özünü təqsirli bilərək ifadəsində göstərmişdir ki, qanunsuzluqların hər birinə görə cavabdehlik daşıyır, digər şəxslərin bu işlə əlaqəsi yoxdur.

Beləliklə, A. Məlikovun CM-in 213.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayəti törətməsi öz etirafı ilə yanaşı, iş üzrə toplanmış digər sübutlarla tam təsdiq olunub. İsmayıllı Rayon Məhkəməsi A.Məlikovun 2 il müddətinə islah işlərinə cəlb olunması barədə qərar çıxarıb.

**ELBRUS**

vergi təqvimi

| APREL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | **15** | 16 | 17 | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 aprel - «(1) və (2)».
22 aprel - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi:** Müəssisənin yol vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Mehmanxanada qalanlara vergi güzəşti



Cənubi Koreya hökumətinin həyata keçirdiyi vergi islahatı ölkəyə əcnəbi turistləri cəlb etmək məqsədi daşıyır. Hökumət mehmanxanada qalmağa görə tutulan verginin 10%-nin müsafirlərə qaytarılması barədə qərarı təsdiq etmişdir və gözlənilir ki, bu addım Cənubi Koreyanın mehmanxanalarında yaşayan turistlərin sayının artması ilə nəticələnməlidir. ƏDV-nin qaytarılması mehmanxanada iki gecədən çox, amma 30 gecədən az olmayan müddətdə qalan əcnəbi turistlər üçün nəzərdə tutulmuşdur. Bundan başqa, hökumətin qərarına əsasən, verginin qaytarılması yalnız dəyərinə səhər yeməyi daxil edilmiş mehmanxana otaqlarına şamil olunacaq. Yeni qaydalar aprelin 1-dən qüvvəyə minmişdir.

Verginin qaytarılması proseduru da müzakirə olunmuşdur. Turistlər mehmanxanaya gəldiyi gündən üç ay müddətində ərizə verməlidir. Bunun üçün mehmanxana orada qalma barədə iki nüsxədə arayış verir. Arayış hava limanında, yaxud ölkədən çıxışın başqa məntəqəsində xüsusi «vergi qaytarılması» (Tax Refund) pəncərəsinə təqdim edilməlidir. Buradakı yoxlama prosedurundan sonra ƏDV əcnəbi turistə nağd şəkildə qaytarılır. Hökumət hesab edir ki, bu yenilik beynəlxalq turizm sahəsində biznes mühitini yaxşılaşdıracaq. Amma otellərin vergi qaytarması (Hotel Tax Refund) proqramında ölkə mehmanxanalarının hamısı iştirak etmir və bu amil mexmanxana seçilərkən nəzərə alınmalıdır.

# Dərmanlardan tutulan vergilər azaldılmışdır

*Ukrayna parlamenti «Qanunvericilik normalarında bəzi uyğunsuzluqların aradan qaldırılması üçün ölkənin Vergi Məcəlləsinə və bir sıra qanunvericilik aktlarına dəyişikliklərin edilməsi barədə» Qanun qəbul etmişdir. Bu qərarın qəbul olunmasına 239 deputat səs vermişdir.*

Qanun layihəsinə əsasən, ölkədə istehsal olunan və idxal edilən dərmanlardan tutulan ƏDV 20%-dən 7%-ə endirilmişdir. Ukraynanın baş naziri Arseni Yasenyukun sözlərinə görə, bu sənəd kompleks xarakter daşıyır və çox mühüm əhəmiyyətə malikdir: «Nazirlər Kabineti deputatların təklifini bəzi avtomobillərdən tutulan aksizlərin dərəcələri və varlılar üçün vergi tətbiq olunması məsələsinə baxılması şərtilə nəzərə almışdır. Qanun layihəsində bu müddəalara da yer verilmişdir».

# Daşınmaz əmlaka vergi əhəmiyyətli dərəcədə artacaq

*Serbiyanın paytaxtı Belqradda 2014-cü ildən mənzil sahiblərinin 2/3 hissəsi üçün daşınmaz əmlak vergisi ötən illə müqayisədə 80% artacaq. Faiz nisbəti ifadəsində vergi daha çox köhnə mənzillərin təkrar bazarında, mütləq rəqəmlərlə isə Serbiya paytaxtının yeni mənzillər bazarında yüksələcək.*

Belqrad hakimiyyəti mənzil vergisinin artımına 80% limit müəyyən etmişdir. Amma bu, vergini ilk dəfə ödəyən mənzil sahiblərinə şamil olunmayacaq. Bu məsələ Vojdovats rayonundakı yeni məhəllədə mənzil alanları xüsusilə maraqlandırır. Onların əksəriyyəti mənzilləri ipoteka krediti hesabına almışdır və verginin artması əlavə yükə çevriləcəkdir. Vergi bazası kimi mənzilin bazar dəyəri qəbul olunduğundan tikilinin keyfiyyəti verginin dərəcəsinə təsir göstərmir və bu, Belqradda mənzillərdən tutulan vergilərin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur.

2014-cü ildən paytaxtın köhnə məhəlləsinin birinci zonasında yerləşən, sahəsi 50 kv.m olan mənzillərdən tutulan vergi 80% yüksələrək ildə 77 dollar olacaq. Həmin zonada yerləşən yeni tikilidəki mənzilə görə vergi 16% artsa da, ödəniləcək verginin məbləği köhnə mənzillərlə müqayisədə iki dəfə çox olacaq.

İkinci zonada da bənzər vəziyyət müşahidə edilir. Məsələn, Köhnə Merkator rayonundakı Borça və Petlovo-Brdo məhəllələrində təkrar satılmış daşınmaz əmlaka illik vergi 24 dollar, yeni mənzillərə isə 83 dollardan bir qədər artıq olacaq.

Belqradın elit rayonu Dedinyedə sahəsi 50 kv.m olan, təkrar bazarda satılmış mənzilə görə vergi 145 dollar, yeni mənzillərdə isə 237 dollar və daha çox olacaq.

Xarici ölkələrin təcrübəsi:

# Türkiyə Respublikasının vergi sistemi: *mənfəət vergisi*

*Türkiyədə 2012-ci ildə ÜDM 2,2% artaraq 785,7 mlrd. ABŞ dolları təşkil etmişdir. Adambaşına düşən ÜDM 10.497 dollar olmuşdur. ÜDM-in əsas hissəsini xidmətlər (57,4%) və sənaye (23,8%) təşkil etmişdir.*

Dövlət büdcəsinin gəlirləri 179,4 mlrd. dollar, xərcləri isə 196,3 mlrd. dollar olmuşdur. İnflyasiya 6,2%, işsizlik səfiyyəsi 9,2% olmuşdur. Minimum aylıq əməkhaqqı 2014-cü ilin birinci yarısı üçün 1071 TL (≈471 dollar), ikinci yarısı üçün isə 1134 TL (≈499 dollar) müəyyən edilmişdir.

2012-ci ildə Türkiyədə ümumi vergi daxilolmalarının həcmi 154,7 mlrd. dollar olmuşdur ki, bunun 33,2%-i birbaşa vergilər, 66,8%-i isə dolayı vergilərin payına düşür.

Türkiyə Gəlirlər Administrasiyası Maliyyə Nazirliyinin tərkibində olan, dövlətin gəlir siyasətini ədalətlilik və qərəzsizlik prinsiplərinə uyğun həyata keçirən dövlət orqanıdır. Gəlirlər Administrasiyasının tabeliyində 29 əyalətdə, 30 xidmət nöqtəsində Ərazi vergi dairələri fəaliyyət göstərir.

Ölkədə vergi ödəyicilərinin sayı 36.281.717 nəfər, vergi əməkdaşlarının sayı isə 40.244 nəfərdir. ƏDV ödəyicilərinin xüsusi çəkisi 6,48%-dir.

***Mənfəət vergisi*** klassik sistemlə toplanılır (müəssisənin mənfəəti müəssisə səviyyəsində vergiyə cəlb olunur, xalis mənfəətdən səhmdarlara ödənilən dividend bir daha vergiyə cəlb olunur).

Mənfəət vergisinin ödəyiciləri korporasiyalar (AS), məhdud məsuliyyətli cəmiyyətlər (Ltd S), məhdud səhmdar ortaqlıqlar, kooperativlər, dövlət hakimiyyəti orqanlarına, assosiasiyalara və fondlara məxsus və onlar tərəfindən idarə olunan kommersiya və sənaye müəssisələri və «Kapital bazarı» Qanununa əsasən təsis edilmiş investisiya fondlarıdır.

Tərəflərindən azı biri yuxarıda qeyd olunan ödəyicilərdən ilk dördündən birinə aid edilən birgə müəssisələr vergitutma məqsədləri üçün mənfəət vergisinin ödəyicisi olmaq və ya ayrı şəxslər kimi vergiyə cəlb edilmək hüququ arasında seçim edə bilərlər. Tam və ya məhdud ortaqlıqların tərəfləri vergitutma məqsədləri üçün ayrı şəxslər hesab edilirlər.

Türkiyə ərazisində hüquqi ünvan və ya effektiv idarəetmə yerinə malik müəssisə rezident hesab olunur.

Vergiyə cəlb olunan gəlir təqvim ilinin sonuncu və birinci gününə xalis aktivlərin dəyərləri arasındakı fərq kimi hesablanır. Ən əhəmiyyətli azadolma rezident müəssisələrdən alınan dividendlərə tətbiq edilən azadolma hesab edilir.

Biznes gəlirlərinin əldə olunması və saxlanılması ilə bağlı çəkilmiş xərclər, bir qayda olaraq, gəlirdən çıxıla bilər. Biznesə başlama xərcləri çəkildiyi il tam məbləğdə çıxıla bilər və ya 5 il ərzində amortizasiya edilə bilər. Qarşılıqlı şəkildə asılı olmayan şəxslərə ödənilən faiz və royalti gəlirdən çıxılır. Bununla belə, investisiya layihəsinin maliyyələşdirilməsi məqsədilə alınmış borc müqabilində ödənilən faizlər və xarici valyuta məzənnəsi xərcləri kapitallaşdırılmalı və investisiya dövrü ərzində amortizasiya olunmalıdır.

İnvestisiya dövründən sonra ödənilmiş faizlər kapitallaşdırıla və ya birbaşa çıxıla bilər. 1 yanvar 2013-cü il tarixdən borcu kapitalından artıq olan müəssisələrin maliyyələşdirmə xərclərinin çıxılmasına məhdudiyyət qoyulur. Bu halda, maliyyələşdirmə xərclərinin borcla kapital arasındakı fərqə aid edilən hissəsinin 10%-i çıxılmır. Kredit təşkilatları, maliyyə institutları, maliyyə lizinqi, faktorinq və maliyyə şirkətlərinə bu məhdudiyyət tətbiq edilmir. Müəllif hüquqları, patentlər, ticarət nişanları və nouhaudan istifadəyə görə ödənilən royaltilər birbaşa çıxılmasa da, amortizasiya edilə bilir.

Aşağıdakı qurumlara edilən ianələr illik məcmu mənfəətin 5%-i həcmində çıxıla bilər:

- dövlət orqanları;
- Nazirlər Şurası tərəfindən təsdiqlənmiş ictimai maraqlara xidmət göstərən assosiasiyalar;
- Mülki Məcəlləyə əsasən təsis edilən vergidən azad trastlar;
- elmi tədqiqat və inkişaf institutları.

Bu ianələr isə məhdudiyyətsiz çıxıla bilər:

- rəsmi orqanlara təhsil və bərpa işləri üçün;
- tarix, mədəniyyət və incəsənətlə bağlı müəssisələr üçün;
- Nazirlər Şurasının yardım qərarı verdiyi təbii fəlakətlərlə əlaqədar;
- Türk Qırmızı Aypara Assosiasiyası və Türk Yaşıl Aypara Cəmiyyətinə;
- həvəskar idman cəmiyyətlərinə;
- dini məbədlərin tikintisinə;
- peşəkar idman cəmiyyətlərinə ianələrin 50%-i.

15 iyun 2012-ci il tarixdən aşağıdakı çıxılmaların tətbiqi mümkündür:

- Türkiyə müəssisəsinin kapital fonduna yönəldilən investisiya üçün vergi tutulan gəlirin 10%-i;
- Türkiyədə qeyri-rezident şəxslərə mühəndislik, memarlıq dizayn, proqram təminatı, tibbi hesabatlar, mühasibat, çağrı mərkəzi və məlumatların saxlanılması xidmətləri göstərən rezident müəssisələr üçün mənfəətin 50%-i (belə xidmətlərdən müstəsna olaraq xaricdə istifadə edildiyi halda);
- müvafiq nazirliyin nəzarəti altında qeyri-rezident şəxslərə təhsil və tibbi xidmətlər göstərən rezident müəssisələr üçün mənfəətin 50%-i.

Türkiyədə mənfəət vergisinin dərəcəsi 20%-dir.

Mənfəət vergisinin illər üzrə dərəcəsi və daxilolmasının dinamikası (mlrd. ABŞ dolları)




*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:** 1.Azərbaycanın xalq artisti, tar ifaçılığı sənətinin mahir ustadlarından birinin adı; 2.Sürünənlər sinfinə aid heyvan; 3.Rusiyada çay; 4.Azərbaycan bəstəkarının adı. Azərbaycan SSR əməkdar incəsənət xadimi, fleytaçı, estetika üzrə fəlsəfə doktoru. «Lalələr», «Göygöl», «Tələbə» mahnılarının müəllifi; 6.Ötən əsrin 60-cı illərində populyar rəqs; 7.İliada poemfasinin baş qəhrəmanı, yunan ordusunun ən cəsur sərkərdəsi, yunanların fəxri; 8.Kanadada əyalət və göl; 13.Sərinləşdirici xassəyə malik şirin alqokolsuz içki; 14.Mineral. Qurğuşun (II) sulfidi *(PbS)*; 16.Uelsdə *(Boyük Britaniya)* şəhər və liman; 17.Zirehli artilleriya hərbi gəmisi; 19.Ərəbistan yarımadasının cənubunda dövlət; 21.Respublikamızda rayon; 22.Gözlənilməz yoxlama.

**Soldan sağa:** 1.Rusiya çar ordusunda hərbi rütbə; 5.Siciliyanın şərq sahilində stratovulkan; 9.Fransada, Rona çayının vadisində əsən güclü və soyuq şimal-qərb küləyi; 10.Hürufilik təriqətinin əsasını qoymuş sufi alim, şair, filosof (1339-1401), Nəsiminin ustadı; 11.İşarə *(rusca)*; 12.Asiya və Avropanın mülayim iqlimli bölgələrində yaşayan su hörümçəkləri; 14.Su və şirə üçün nəzərdə tutulmuş qab; 15.Qanunla nəzərdə tutulmuş formada mülkiyyətdən və qeyri-maddi imkanlardan istifadə etməklə, əmtəə satışından, xidmət göstərilməsindən gəlir əldə etmək üçün müstəqil fəaliyyət; 18.Ağ qan hüceyrəsi; 20.Südləyənkimilər fəsiləsinə aid bitki cinsi *(ağac)*; 23.Yunan mifologiyasında təbii ruh və ya təbiət hadisələrinin qız cildində canlanmış ruhu; 24.Elektrostatik üsulla işləyən ofis texnikası *(surətçıxaran)*; 25.Qalay, qurğuşun və s. metallarla qarışıq mis ərintisi, tarixin bir dövrü bu metalın adını daşıyır; 26.Borc alan fiziki və ya hüquqi şəxs.

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ampir; 2.Miçiqan; 3.Nail; 4.Azimut; 6.Rolik; 7.Plotter; 8.Kvintet; 13.Bernard (Şou); 14.Medison (Ceyms); 16.Melanin; 17.Toyota; 19.Metan; 21.Miron; 22.Seyf.

**Soldan sağa:** 1.Ammonyak; 5.Trap; 9.Puççini (Cakomo); 10.Volvo; 11.Riqa; 12.Turniket; 14.Menuet; 15.Teymur; 18.Dominion; 20.Alim (Qasımov); 23.Sitar; 24.Oleandr; 25.Nanə; 26.Parfenon.

Vergilər Nazirliyinin kollektivi Analitik informasiya şöbəsinin rəisi Mehdi Mirsəlimova, atası **professor Ramiz Mirsəlimovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14200**

## idman

# İlk dəfə Avropa çempionatında...

*Portuqaliyanın Palmela şəhərində idmanın səmti müəyyən etmə növü üzrə Avropa çempionatı keçirilmişdir.*

Azərbaycan Respublikası Səmti Müəyyən Etmə İdman Federasiyasından bildirmişlər ki, Avropa İşçi Qrupuna daxil olduqdan sonra qitə çempionatına ilk dəfə dəvət alan ölkəmizi yarışda beş idmançı təmsil etmişdir. Yarışa Azərbaycan ilə yanaşı, Avropanın 30-a yaxın ölkəsindən idmançılar qatılmışlar.

Çətinliyi və gərgin mübarizəsi ilə seçilən çempionatda uzun, orta məsafələrdə qaçışlar və sprint yarışı keçirilmişdir. İdmançılarımızın belə yüksək dərəcəli yarışda ilk dəfə iştirak etmələrinə baxmayaraq, uzun məsafə üzrə qaçışda milli yığmanın üzvü Müvəssil Allahverdiyev bütün nəzarət məntəqələrində qeyd olunaraq finişə vaxtında çatmışdır. Digər üç idmançımız isə nəzarət vaxtından bir neçə dəqiqə kənara çıxdığı üçün finala vəsiqə əldə edə bilməmişdir.

Sprint üzrə yarış isə yığmamızın üzvləri üçün uğurlu olmuşdur - idmançılarımız «Sprint qualification» mərhələsindən müvəffəqiyyətlə keçib finala vəsiqə qazanmışlar.

Çempionatın sprint final mərhələsində idmançılar 3 kilometr məsafə üzrə 26 nəzarət məntəqəsində qeyd olunaraq finiş xəttinə vaxtından əvvəl çatmışlar. Milli komandamızın üzvü Şəhriyar İsmayılov 64 idmançı arasında 40-cı yeri tutmuşdur.

Qeyd edək ki, yarışdan sonra Beynəlxalq Səmti Müəyyən Etmə Federasiyasının (International Orienteering Federation) rəsmi saytında bu idman növü üzrə Avropa çempionatında ilk dəfə çıxış edən Azərbaycan idmançıları barədə geniş məqalə dərc edilmişdir. Azərbaycan Səmti Müəyyən Etmə Federasiyasının prezidenti Mirəli Kazımov sayta verdiyi müsahibəsində bildirmişdir ki, bu ilin iyul ayında İtaliyada baş tutacaq dünya çempionatında milli komandamız daha geniş heyətlə çıxış edəcək.

# Federasiya kuboku uğrunda beynəlxalq turnir davam edir

*Aprelin 21-də Bakı Olimpiya İdman Mərkəzində sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmə və gənclər arasında Azərbaycan Güləş Federasiyasının Kuboku uğrunda ənənəvi beynəlxalq turnirin üçüncü gününün qalibləri müəyyənləşmişdir.*



Turnirdə Azərbaycan pəhləvanları ilə yanaşı, Belarus, Rusiya, Türkiyə, Qazaxıstan, Özbəkistan, İran, Tacikistan, İsveçrə, Macarıstan, Latviya, Gürcüstan və Qırğızıstan güləşçiləri də iştirak edirlər.

Turnirin proqramına əsasən, yarışın üçüncü günündə sərbəst güləş üzrə yeniyetmə idmançılar mübarizə aparmışlar. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmalarda Milad Abdi (42 kq, İran), Şahin Əlifzadə (46 kq, Azərbaycan), Sabutay Əmişov (50 kq, Azərbaycan), Kaven Rahmatabadi (54 kq, Azərbaycan), Mahir Əmiraslanov (58 kq, Azərbaycan), Pənah İlyaslı (63 kq, Azərbaycan), Osman Göçmen (69 kq, Türkiyə), Hacımurad Məhəmmədsəidov (76 kq, Azərbaycan), Şamil Sadullayev (85 kq, Azərbaycan) və Maqomedxan Maqomedov (100 kq, Rusiya) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.

Ümumi komanda hesabında Azərbaycan millisi birinci, Gürcüstan ikinci, Macarıstan yığması isə üçüncü olmuşdur.

# Azərbaycanın iki boksçusu yarımfinalda

*Bolqarıstanın paytaxtı Sofiyada keçirilən gənclər arasında dünya birinciliyi davam edir. Azərbaycanın iki boksçusu yarışların ən azı bürünc medalını özünə təmin etmişdir.*

Turnirdə 52 kiloqram çəki dərəcəsində mübarizə aparan Məsud Yusifzadə aprelin 23-də keçiriləcək yarımfinalda Böyük Britaniya nümayəndəsi Məhəmməd Əli ilə qarşılaşacaqdır.

Komandamıza medal qazandıran digər boksçu Rüfət Hüseynovdur. Birincilikdə 49 kiloqram çəki dərəcəsində yarışan həmyerlimiz yarımfinal görüşündə özbəkistanlı Süleyman Latipovla üz-üzə gələcəkdir.

Çində keçiriləcək yeniyetmələrin ikinci Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan birinciliyə aprelin 24-də yekun vurulacaqdır.

# «Shamkir Chess 2014» şahmat turniri

*Aprelin 21-də Şəmkirdə Vüqar Həşimov memorialının ikinci turunun oyunları keçirilmişdir.*

«A» qrupunda norveçli Maqnus Karlsen və amerikalı Hikaru Nakamura qarşılaşmasında dünya çempionu növbəti dəfə ən güclü olduğunu sübut etmişdir.

Altı saat davam edən oyun M.Karlsonun qələbəsi ilə nəticələnmişdir. Şəhriyar Məmmədyarov - Teymur Rəcəbov (hər ikisi Azərbaycan), Fabiano Karuana (İtaliya) - Sergey Karyakin (Rusiya) partiyaları sülhlə başa çatmışdır.

Turnir cədvəlinə 2 xalla Karlsen başçılıq edir. Karyakin, Karuana, Rəcəbov - hərəyə 1 xalla növbəti yerləri bölüşdürürlər. Nakamura və Məmməqyarov isə hələ ki, 0,5 xal qazanıblar.

Xatırladaq ki, «B» qrupunda daha beş şahmatçımız - Rauf Məmmədov, Vasif Durarbəyli, Qədir Hüseynov, Nicat Abbasov və Eltac Səfərli mübarizə aparırlar.

## mozaika

# Bəzi vitaminlərin yüksək dozası ömrü azaldır

sağlam həyat tərzi

*Şotlandiyanın Qlazqo Universitetinin mütəxəssisləri belə qənaətə gəliblər ki, C və E vitaminlərinin yüksək dozası sağlamlığa ziyan vura və ömrü qısalda bilər. İnsan orqanizminin C vitamini hasil etmədiyi nəzərə alınarsa, orqanizm hüceyrələrinin normal fəaliyyəti üçün gün ərzində bu vitamindən 40 milliqram qəbul etmək lazımdır. E vitamininə olan gündəlik tələbat qadınlar üçün 3 milliqram, kişilər üçün 4 milliqram təşkil edir və bu vitamin hüceyrənin strukturunu qoruyub saxlayır.*

Lakin həblərdə və əlavələrdə vitaminlərin miqdarının faizi düzgün göstərilmir və bəzən göstərilən məlumatdan 100 dəfə çox olur. Qlazqo Universitetinin professoru Kolin Selman deyir: «Əlbəttə, vitaminlər sərbəst radikallara təsir edərək orqanizmin qocalmaya qarşı mübarizə aparmasına kömək edir. Lakin vitamin çatışmazlığını qida ilə aradan qaldırmaq daha təhlükəsizdir. Rəngarəng rasion sağlamlığın əsasıdır».

Nikotin turşusu, yaxud B3 vitamini canlı hüceyrələrin bir çox oksidləşmə reaksiyalarında iştirak edir və tam təhlükəsizdir. Böyüklərin ona gündəlik tələbatı 15-20 milliqramdır. Bununla yanaşı, eksperimentlər göstərmişdir ki, niasin immuniteti min dəfə gücləndirir, bu zaman orqanizmin müdafiə funksiyaları o qədər artır ki, o, qızılı stafilokokdan və digər ciddi viruslardan təbii müdafiə qazanır. Alimlər əmindirlər ki, çox yüksək dozalarda bu vitamin hətta immun çatışmazlığı virusunun inkişafının qarşısını almağa qadirdir. Niasin həm də təhlükəsizdir.

Hələ 50-ci illərin sonunda tədqiqatçı-alim L.Ron Habbard (dianetikanın və sayentologiyanın banisi və müəllifi) müəyyən etmişdi ki, B3 vitamini toksinlərin insan orqanizmindən çıxmasına kömək göstərir. Sübut olunmuşdu ki, bu vitamin hətta ən böyük dozalarda (gündə bir neçə min milliqram) tamamilə təhlükəsizdir. Bundan əlavə, artıq 45 ildən çoxdur ki, niasindən orqanizmin detoksikasiyası vasitəsi kimi istifadə olunur.

2002-ci il sentyabrın 11-də Nyu-Yorkda törədilmiş terror aktının baş verdiyi ərazidə çalışmış yanğınsöndürənlər və xilasedicilər Ron Habbardın yuxarıda göstərilən ixtiralarına əsaslanan detoksikasiya proqramı keçmişlər. Daha sonra Meksika körfəzinə neft axını zamanı çirklənmiş çimərlikləri təmizləməyə kömək göstərmiş könüllülər və xilasedicilər də bu proqramı keçmişlər.

# Dünyanın ilk «ağıllı yolu»

texnologiya




Son zamanların ən dəbdə olan mövzularından biri smart, başqa sözlə, «ağıllı» cihazlardır: məsələn, «ağıllı telefon», «ağıllı televizor» kimi. Belə görünür ki, texnoloji «ağılın» sərhədləri getdikcə böyüyür. Türkiyənin «Sabah» qəzetinin məlumatına görə, yaxın günlərdə Hollandiyada dünyanın ilk «ağıllı yolunun» açılışı olacaq. Ölkə alimlərinin kəşfi olan bu yol fosforla işıqlandırılacaq. Elektrik enerjisi ilə işləyən maşınlar «ağıllı yolda» hərəkətdə olarkən enerji ehtiyatı yığa biləcək.

«Ağıllı yol» enerjiyə qənaət olunmasına imkan verməklə yanaşı, qəzaların qarşısını almaq baxımından da çox əhəmiyyətlidir. Xüsusi fosforla rənglənən yol gündüz günəşdən topladığı işığı gecə sərf edəcək. Beləliklə, bu yolun gecələr işıqlandırılmasına ehtiyac olmayacaq. Yol hava şəraiti ilə bağlı proqnozlar da verəcək, havanın temperaturu, yağış və ya qar yağması ilə bağlı proqnozlar xüsusi işarələr vasitəsilə sürücülərin nəzərinə çatdırılacaq.

# «Qanlı ay tutulması»

maraqlı

Dünya aprelin 15-də «qanlı ay tutulması» adlandırılan astronomiya hadisəsinə şahidlik edib.



Tutulma yerli vaxtla saat 09:53-də ayın Yerin kölgəsinə girməsi ilə başlayıb və bununla da ənənəvi olaraq «qanlı ay tutulması» adlandırılan astronomiya hadisəsi baş verib. Ay tutulması yalnız Şimali və Cənubi Amerika qitələrindən izlənilə bilib. Tarixi an həm ABŞ-ın Aerokosmik Tədqiqatlar Təşkilatının (NASA) rəsmi internet saytından, həm də dünya televiziyalarından canlı yayımlanıb. Tutulmanın müddəti bizim vaxtla saat 15:37-də sona çatıb.

NASA-dan verilən məlumata görə, müşahidə olunan «qanlı ay tutulması» «Tetrad» adlandırılan dörd tutulmadan ilkidir və bu sıklin sonuncusu 28 sentyabr 2015-ci ildə olacaq. Bu cür tutulma siklinin 4 dəfədən ibarət olması son 500 ildə yalnız üç dəfə qeydə alınıb.

Əvvəlki tutulmalar 1492, 1949 və 1967-ci illərdə baş verib.

# «Kosmik sakura» gül açdı

**Yaponiyada kosmosda olmuş gilas tumundan bitmiş sakura ağacı gözlənildiyindən 6 il tez gül açmışdır.**

Qifu prefekturasının Xiqasiomi şəhərindəki Qandzedzi buddist məbədinin ərazisində bitmiş bu ağac yapon bioloqlarını heyrətə gətirmişdir.

2008-ci ildə məbədin rəhbərliyi sakura ağaclarından birinin toxumlarını Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyinə vermiş və astronavt Koiti Vakata həmin toxumları özü ilə kosmosa aparmışdır.

Gilas tumları 10 ay yerətrafı orbitdə olduqdan sonra onları vətənə qaytarmış və 2010-cu ildə əkmişlər.

Ötən dörd il ərzində «kosmik sürətlə» böyüyərək hündürlüyü 4 metrə çatmış ağac bu bahar gül açmışdır.

Sakuranın belə erkən «həddi-büluğa çatması» çox nadir hadisədir. Adətən, bu ağac əkiləndən təxminən 10 il sonra çiçəkləməyə başlayır.

Tsukuba Universitetinin botanika professoru Kaori Tomita-Yekotani demişdir: «Bunun nə üçün belə olmasını deyə bilmərik - məlumat çox cüzidir. Ola bilsin ki, ağacın bu qədər sürətlə böyüməsinə səbəb kosmik radiasiyanın toxumlara təsiri olmuşdur».

# Qarabasmaların səbəbi

araşdırma

*Neyrofizioloq alimlər siçovulun beynində ölümqabağı fəallığın sönməsi prosesini izləyə bilmişlər. Bu tədqiqat «tunelin sonundakı işığın», habelə ölüm məqamında baş verən digər həyəcanların təbiətini müəyyən etməyə kömək göstərəcəkdir.*

Miçiqan Universitetinin professoru Cimo Borcigin deyib: «Bizim eksperimentimiz ölməkdə olan beynin neyrofizioloji vəziyyətini nəzərdən keçirmək üçün apardığımız ilk tədqiqatdır. Gələcəkdə o, insanların iştirakı ilə tədqiqatlar aparılmasının, habelə ürək dayandıqdan sonra işığı görmənin səbəblərinin və digər ölüm həyəcanlarının öyrənilməsinin elmi əsasını qoymağa kömək edəcək».

Alimlərin fikrincə, klinik ölüm vəziyyətində insanlarda parlaq obrazlar yaranmasının səbəbi onlarda neyronların fəallığının son dərəcə artmasıdır. Alimlər elektroensefaloqrafın köməyi ilə siçovulların beynini müşahidə nəticəsində belə qənaətə gəlmişlər. Alimlər beyin dalğalarının iki tipini - yuxugörmə və meditasiya ilə bağlı olan qamma və teta dalğalarını müşahidə etmişlər.

Bioloqlar ensefaloqrafı siçovulun başına qoşmuş və üç vəziyyətdə - ürəyi süni şəkildə dayandırmaqla klinik ölüm, anesteziya və oyanma zamanı neyronların fəallığını qeydə almışlar. Alimlərin bildirdiklərinə görə, üzərində təcrübə aparılan gəmiricilərin həmısında eyni hal müşahidə edilmişdir: onların ölümündən təxminən yarım dəqiqə sonra gəmiricinin beynində aktivlik «partlayışı» baş vermişdir. Neyronlarda impulsların tezliyi kəskin şəkildə artmış, beynin bəzi bölmələri isə bir-biri ilə sinxronlaşmışdır.

Alimlər beynin belə fəallaşmasının dəqiq səbəbini hələlik izah edə bilmirlər. Lakin onların fikrincə, bu fenomen müxtəlif qarabasmaların, habelə «tunelin sonunda görünən işığın» səbəbi ola bilər. Gələcəkdə bioloqlar bu fərziyyəni yoxlamaq üçün artıq insanların iştirakı ilə təcrübələr aparmağı planlaşdırırlar.

**Müdriklər deyib ki...**



*«Zaman – hərəkətsiz əbədiyyətin hərəkət edən obrazıdır».*

*Jan Jak Russo (1712-1778)*